# BAXIŞ

Testlər/0203#Y15#01 (500) /Baxış

## TEST: 0203#Y15#01 (500)

| | |
|---|---|
| Test | 0203#Y15#01 (500) |
| Fənn | 0201 - Azərbaycan dili |
| Təsviri | [Təsviri] |
| Müəllif | Əmrahova M. |
| Testlərin vaxtı | 80 dəqiqə |
| Suala vaxt | 0 Saniyə |
| Növ | İmtahan |
| Maksimal faiz | 500 |
| Keçid balı | 170 (34 %) |
| Suallardan | 500 |
| Bölmələr | 48 |
| Bölmələri qarışdırmaq | ☑ |
| Köçürməyə qadağa | ☑ |
| Ancaq irəli | ☐ |
| Son variant | ☐ |

## BÖLMƏ: 01-01

| | |
|---|---|
| Ad | 01-01 |
| Suallardan | 13 |
| Maksimal faiz | 13 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 2 % |

Sual: Hansı sözdə iki sait uzun tələffüz oluna bilər? (Çəki: 1)
- ○ bəzən
- ○ əyan
- ◉ malikanə
- ○ vəfasız
- ○ heca

---

Sual: Verilmiş sözlərdən hansına - lar2 şəkilçisi artırdıqda sözün sonundakı qoşa samitlərdən biri düşmür? (Çəki: 1)
- ○ fənn, sirr

- haqq, həll
- hədd, sədd
- xətt, həzz
- (x) hiss, küll

---

Sual: Verilmiş qoşasamitli sözlərdən hansı fərqli tələffüz olunur? (Çəki: 1)
- həssas
- xiffət
- meşşan
- şəffaf
- (x) qrammofon

---

Sual: Hansı sıradakı bütün sözlərin tərkibində uzun tələffüz olunan saitlər var? 1) Araz, qəti, epos 2) Arif, bəli, musiqi 3) Aytən, səbir, erkən 4) Adil, elan, şöbə 5) Aygün, dəniz, etüd (Çəki: 1)
- 1; 4
- (x) 2; 4
- 2; 5
- 2; 3
- 1; 2

---

Sual: Sözlərdən birində səs və hərflərin sayı bərabərdir: (Çəki: 1)
- sehrkar
- səlahiyyət
- (x) səyyah
- sui-qəsd
- səadət

---

Sual: Hansı sözlərdə sait uzun tələffüz olunur? (Çəki: 1)
- aşıq, Aydın
- (x) aləm, Arif
- heca, Aysel
- sarı, Aygün
- ayna, Aynur

---

Sual: Aşağıdakı sözləri əlifba sırası ilə düzsək, birinci hansı söz olar? (Çəki: 1)
- (x) taxta
- üzüm
- vaqon
- Zakir
- yaz

---

Sual: Hansı sözün tərkibində qalın saitlərin hamısı var? (Çəki: 1)
- şərqşünaslıq
- altıbucaqlı

- (•) uzunboğazlı
- ( ) enliyarpaqlı
- ( ) oyuncaqlar

---

Sual: Cingiltili samitlərin yaranmasında aşağıdakılardan hansı daha fəal iştirak edir? (Çəki: 1)

- (•) səs telləri
- ( ) dodaqlar
- ( ) dil
- ( ) damaq
- ( ) dil və damaq

---

Sual: Hansı sıradakı sözlərdə incə saitlərin hamısı var? (Çəki: 1)

- ( ) enli kücələr
- ( ) bəzi döyüşlər
- (•) yeni görüşlər
- ( ) incə söhbətlər
- ( ) enlikürək güləşçilər

---

Sual: Yalnız cingiltili samitlər olan sıranı göstərin: (Çəki: 1)

- ( ) v, y, k, l, ç
- (•) b, q, ğ, d, j
- ( ) z, y, t, p, ş
- ( ) q, d, l, ç, h
- ( ) y, l, m, n, f

---

Sual: Hansı sıradakı səslər Azərbaycan dilinə məxsus spesifik səslərdir? (Çəki: 1)

- ( ) ə, b, q, ü, d, m
- (•) g, ğ, ə, ö, ü, c
- ( ) t, f, ç, ş, s, z
- ( ) a, b, v, q, ğ, d, e
- ( ) t, g, c, ı, i, y, ü

---

Sual: Hansı hərfləri tələffüz edərkən ondan sonra yox, əvvələ "e" saiti artırılır? (Çəki: 1)

- ( ) f, h, x, c, g
- ( ) d, z, j, k, b
- ( ) s, ş, t, q, d
- (•) l, m, n, r
- ( ) v, ğ, ç, c

---

## Bölmə: 01-02

| | |
|---|---|
| Ad | 01-02 |
| Suallardan | 13 |
| Maksimal faiz | 13 |

| | |
|---|---|
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: “Məftil” sözünün fonetik təhlilindəki səhvi göstərin: (Çəki: 1)
- ◉ Yazılışı ilə tələffüzü fərqlənmir.
- ○ 6 hərf, 6 səsdən ibarətdir.
- ○ İki hecadan ibarətdir.
- ○ Saitlərin hər ikisi incədir, dodaqlanmayandır.
- ○ Samitlərdən ikisi [m] və [l] kar qarşılığı olmayan cingiltili samitdir.

---

Sual: Hansı sözün tərkibində dodaqlanmayan incə saitlərin hamısı var? (Çəki: 1)
- ○ dönməzlik
- ○ döyüşçülərimiz
- ○ düzənlik
- ◉ deyişmə
- ○ demokratiya

---

Sual: Hansı sıradakı sözlərin tərkibindəki samitlərin hamısı kardır? (Çəki: 1)
- ○ köpük, yaxşı
- ○ qazan, tüstü
- ○ sülh, tanış
- ◉ xətkeş, xahiş
- ○ yağış, pişik

---

Sual: Hansı sözdə bitişdirici samit işlənmişdir? (Çəki: 1)
- ○ sənədin
- ◉ küçənin
- ○ küçələrin
- ○ Mahirin
- ○ köməyə

---

Sual: “Çarıq” sözünün fonetik təhlilindəki səhvi göstərin: (Çəki: 1)
- ○ Deyilişi ilə yazılışı fərqlənir.
- ○ Sözdə qalın və dodaqlanmayan saitlərin ahəngi gözlənilmişdir.
- ◉ Bir kar [ç], iki cingiltili - [r], [q] samit işlənmişdir.
- ○ Saitlərdən biri açıq, digəri isə qapalıdır.
- ○ İkihecalıdır, vurğusu ikinci hecaya düşür.

---

Sual: Cingiltili samitlə başlayıb, cingiltili samitlə bitən söz hansıdır? (Çəki: 1)
- ○ mədəniyyət
- ○ həyət
- ◉ dəftər
- ○ kitab

- fərasət

---

Sual: "a", "e", "o","ə" saitlərini birləşdirən nədir? (Çəki: 1)

- Dodaqlanan saitlərdir.
- Qapalı saitlərdir.
- Dodaqlanmayan saitlərdir.
- Açıq saitlərdir.
- Qalın saitlərdir.

---

Sual: Sözlərdən biri səhv yazılmışdır: (Çəki: 1)

- paradoks
- karidor
- saymazlıq
- fakültə
- miniatür

---

Sual: Hansı sözdəki bütün saitlər dodaqlanmayan incə saitlərdir? (Çəki: 1)

- öyüd
- qoyun
- dirək
- öküz
- moruq

---

Sual: Azərbaycanlıların istifadə etdiyi ən qədim əlifba hansıdır? (Çəki: 1)

- kiril əlifbası
- alban əlifbası
- latın əlifbası
- ərəb əlifbası
- runik əlifbası

---

Sual: Səhv fikri seçin: (Çəki: 1)

- Əlifba hərflərin müəyyən sıra ilə düzülüşünə deyilir.
- İlk əlifbanı Finikiya tacirləri tərtib etmişlər.
- Dilimizdə bütün səslərlə başlanan sözlərə rast gəlinir.
- Hərflərin çap və əlyazma şəkli, böyük və kiçiyi olur.
- Hərflər yazılı dilin göstəriciləridir.

---

Sual: “R” samitinin kar qarşılığı hansıdır? (Çəki: 1)

- p
- v
- f
- yoxdur
- t

---

Sual: Sözlərdən hansının tələffüzü zamanı səslərin sayı hərflərin sayından çox olmur? (Çəki: 1)

- zəif
- radio
- neftçi
- əmrlər
- ailə

---

## Bölmə: 01-03

| | |
|---|---|
| Ad | 01-03 |
| Suallardan | 13 |
| Maksimal faiz | 13 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: Dilimizdə cütlük təşkil etməyən samitlər hansıdır? (Çəki: 1)

- b, v, g
- l, m, n, r, h
- təkcə h
- x, t, ş, s
- z, c, j

---

Sual: Yalnız qapalı saitlərdən ibarət sözlərin sayını göstərin:əkiz, əjdaha, əxlaqi, kirli, ılıq, imamət, zibillik, üzüntü, tülkülük (Çəki: 1)

- 5
- 3
- 7
- heç biri
- 4

---

Sual: Hansı sırada dodaqlanan qalın saitlərin ahəngi var? (Çəki: 1)

- kömür, ürək, üzük
- qoyun, uşaq, oyun
- qalib, sahib, nazir
- ulduz, noğul, bulud
- ailə, nadir, Səlim

---

Sual: Verilmiş sözlərdən hansının tərkibində kar samit yoxdur: (Çəki: 1)

- alça
- övlad
- xurma
- vəzifə

- xalça

---

Sual: Hansı sözdə tələffüz zamanı saitlərdən biri düşür? (Çəki: 1)
- Altıağac
- aviavağzal
- əcaib
- auditoriya
- sərinlik

---

Sual: Birinin tələffüzü zamanı açıq sait qapalı saitə keçir: (Çəki: 1)
- kölgədə
- gözləmir
- oxşayacaq
- səadətli
- sədaqətlə

---

Sual: İlk saiti "o" ilə yazılıb "a" kimi oxunan sözlər cərgəsini göstərin: (Çəki: 1)
- proqram, oçerk
- Odessa, portfel
- poema, moruq
- orden, okean
- otaq, orbit

---

Sual: Verilmiş sözlərdən neçəsi uzun saitlidir: amansız, bağlama, bardaq, bağırtı, cərəyan, cənnət, rezus (Çəki: 1)
- hamısı
- 5
- heç biri
- 3
- 1

---

Sual: Hansı sırada sözlərin yazılışı düzgün deyil? (Çəki: 1)
- səhf, tövsiyyə
- olimpiada, Füzuli
- qapqara, bəzən
- iyirmi, kosmonavt
- qəhrəman, xətt

---

Sual: "Torpaq" sözünün fonetik təhlilində səhvi tapın: (Çəki: 1)
- Sözdə iki sait, dörd samit var.
- "p" samitdir, kardır.
- Samitlərin ikisi kar, ikisi cingiltilidir.
- "a" saitdir, qalındır.
- İkihecalıdır, vurğu ikinci hecaya düşür.

Sual: Hansı sıradakı sözlər əlifba sırası ilə düzülmüşdür? (Çəki: 1)
- nar, kitab, əlcək
- çinar, boru, faydalı
- hesab, limon, rəsm
- dodaq, aşıq, çıraq
- otaq, uzaq, daraq

---

Sual: Hansı sıradakı hərflər əlifba sırası ilə yazılmışdır? (Çəki: 1)
- d, c, g, l, m, n, b
- ş, ü, t, h, x, k, ğ
- ı, i, s, r, f, b, ə
- b, c, ç, d, e, ə, f, g, ğ
- k, h, o, t, v, z, r, j

---

Sual: Hecalara düzgün ayrılmayan sözü göstərin: (Çəki: 1)
- təəs-süf-lən-mək
- e-lan
- mö-tə-ri-zə
- a-cıq-lan-maq
- ma-a-rif

---

## Bölmə: 02-01

| | |
|---|---|
| Ad | 02-01 |
| Suallardan | 15 |
| Maksimal faiz | 15 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 2 % |

Sual: Hansı sözdə vurğunun yerini dəyişəndə sözün mənası da dəyişir? (Çəki: 1)
- bağban
- sərin
- meşə
- məktəb
- payız

---

Sual: Hansı sözdə vurğu ilk hecaya düşür? (Çəki: 1)
- yenə
- yeni
- yenicə
- yenidən
- yeniyetmə

Sual: Hecalara düzgün bölünməmiş sözlər sırasını göstərin: (Çəki: 1)
- in-cə, en-li
- in-ək, üz-üm
- is-ti, iş-çi
- qə-ti, ge-cə
- bə-li, gə-mi

Sual: “Gətirilmişdir” sözündə vurğu hansı hecaya düşür? (Çəki: 1)
- beşinci hecaya
- dördüncü hecaya
- üçüncü hecaya
- ikinci hecaya
- birinci hecaya

Sual: Sözlərdən birində vurğu son hecaya düşür: (Çəki: 1)
- həmişə
- bəzən
- səhər
- əsasən
- sanki

Sual: Hansı sözdə ahəng qanunu gözlənilmişdir? (Çəki: 1)
- məktub
- xüsusi
- həqiqət
- kitab
- gilas

Sual: Hecalara düzgün ayrılmış sözü göstərin: (Çəki: 1)
- ai-lə
- in-qi-la-bi
- köy-nəy-in
- mədə-niyy-ət
- sai-tin

Sual: Hansı sözdə vurğunun yerini dəyişdikdə sözün mənası dəyişmir? (Çəki: 1)
- dəniz
- süzmə
- alma
- çəkmə
- vurma

Sual: Ahəng qanununda hansı növ saitlərin ahəngi əsas götürülür? (Çəki: 1)
- açıq və qapalı
- incə və qalın
- qalın və açıq
- dodaqlanan və qalın
- incə və dodaqlanan

---

Sual: Neçə sözdə vurğu birinci hecaya düşmüşdür? Yunan, lupa, liman, linza, konyak, yumor, yəqin, etika, həmişə (Çəki: 1)
- 3
- 4
- 5
- 7
- 6

---

Sual: Hansı söz düzgün yazılmamışdır? (Çəki: 1)
- inkişaf
- bialogiya
- realizm
- protokol
- magistratura

---

Sual: Fonetik təhlilə aid deyil: (Çəki: 1)
- sözün səs və hərf tərkibinin göstərilməsi
- sait səslərin göstərilməsi
- sözün mənşəyinin tapılması
- samit səslərin göstərilməsi
- sözün heca və vurğusunun göstərilməsi

---

Sual: Şəkilçilərdən hansını “xalam” sözünə qoşsaq, vurğu yerində qalacaq? (Çəki: 1)
- – dan
- – gil
- – a
- – ın
- – da

---

Sual: Yalnız fonetikaya aid terminlər hansı sırada verilib? (Çəki: 1)
- omonim, heca
- isim, sifət
- səs, vurğu
- ahəng qanunu, sinonim
- sintaksis, dilçilik

---

Sual: Təkcə saitdən ibarət hecalar hansı sözlərdədir? 1) dələ 2) ata 3) aşıq 4) odun 5) vəfa 6) damar 7) ümid (Çəki: 1)

- 2, 3, 5
- 2,5,7
- 1, 5, 6, 7
- (selected) 2, 3, 4, 7
- 1, 3, 6

---

## Bölmə: 02-02

| | |
|---|---|
| Ad | 02-02 |
| Suallardan | 14 |
| Maksimal faiz | 14 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: Vurğusu birinci hecaya düşən söz hansıdır? (Çəki: 1)
- Rəna
- İngiltərə
- Almaniya
- Paris
- (selected) Roma

---

Sual: Aşağıdakı sözlərin neçəsində vurğu II hecaya düşüb? təhlil, darvazalı, dartınmaq, imperiya, intriqa, qladiator (Çəki: 1)
- hamısında
- (selected) 3
- 5
- 2
- 4

---

Sual: “Su” sözünə hansı şəkilçi qoşulduqda sözün vurğusu sabit qalır? (Çəki: 1)
- – lu
- – çu
- – dan
- (selected) – dur
- –la

---

Sual: Ahəng qanununun pozulması nə deməkdir? (Çəki: 1)
- qoşasaitli sözlərin yazıldığı kimi deyilməməsi
- qoşasamitli sözlərin yazıldığı kimi deyilməməsi
- (selected) sözdə eynicinsli səslərin bir-birini izləməməsi
- sözün səs tərkibinin hərf tərkibindən fərqlənməsi
- sözün şəkilçi qəbul edərkən vurğusunun dəyişməsi

---

Sual: Hansı sözdə ahəng qanunu pozulmamışdır? (Çəki: 1)
- müşavirə
- memarlıq
- mahiyyət
- mütənasib
- mötərizə

---

Sual: Hansı sıradakı sözlər hecalara düzgün bölünməmişdir? (Çəki: 1)
- mə-na, mö-tə-bər, mə-lum
- ən-ə-nə, şö-lə, bə-zən
- də-vət, mə-dən, tə-rif
- mə-sul mə-şəl, məət-təl
- mə-lu-mat, tə-ci-li, tə-li-mat

---

Sual: “Yerləşdirmək” sözündə vurğu neçənci hecanın üzərinə düşür? (Çəki: 1)
- I
- II
- III
- IV
- V

---

Sual: “Döyüşçülərimizin” sözündə hansı növ saitlərin ahəngi dəyişməz qalmışdır? (Çəki: 1)
- dodaqlanan saitlərin ahəngi
- incə saitlərin ahəngi
- açıq saitlərin ahəngi
- qapalı saitlərin ahəngi
- dodaqlanan və qalın saitlərin ahəngi

---

Sual: Bəndlərdən hansında verilən bütün sözlərdə təkcə saitdən ibarət hecalar var? (Çəki: 1)
- rəssam, kök, ürək
- sait, etibar, təbii
- aşırım, Azərbaycan, əkinçi
- əxlaq, amorf, əhəng
- əks-səda, əhval, əlifba

---

Sual: Hansı söz hecalara düzgün bölünməmişdir? (Çəki: 1)
- fo-ne-ti-ka
- or-fo-qra-fi-ya
- om-on-im
- di-a-loq
- ça-tış-maz-lıq

---

Sual: Ahəng qanunu pozulmuş əsl Azərbaycan sözləri hansılardır? (Çəki: 1)

- təqdimat, insan, həyat
- ilan, inam, elat
- məharətli, xülasə, bəyanat
- sədaqət, bülbül, siyasət
- cəsarət, rəşadət, mətanət

Sual: Hansı sözdə – lar2 şəkilçisi vurğu qəbul etmir? (Çəki: 1)

- yorurlar
- gəldilər
- onlar
- uşaqlar
- məktəblilər

Sual: Hansı sözlər sətirdən-sətrə keçirmək üçün düzgün bölünməmişdir? 1. a-i-lə 2. əl-üz-yu-yan 3. av-to-qraf 4. me-lod-ram 5. tə-şək-kür (Çəki: 1)

- 1, 5
- 1, 4, 5
- 1, 4
- 3, 4
- 2, 3, 4

Sual: Hansı sözdə ahəng qanunu pozulub? (Çəki: 1)

- dəftər
- müəllim
- katib
- qələm
- ana

## Bölmə: 02-03

| | |
|---|---|
| Ad | 02-03 |
| Suallardan | 15 |
| Maksimal faiz | 15 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: Ahəng qanunu pozulmuş hansı söz əsl Azərbaycan sözüdür? (Çəki: 1)

- Zamin
- Səbuhi
- inqilab
- Günay
- Mətanət

Sual: “Kitab” sözünə bu şəkilçilərdən hansı artırılsa, vurğu yerini dəyişməyəcək? (Çəki: 1)

- (•) - dır
- ( ) – ça
- ( ) – lar
- ( ) -dan
- ( ) – ımız

---

Sual: Vurğusu dəyişməklə mənası dəyişən söz hansı sıradadır? (Çəki: 1)

- (•) çəkmə
- ( ) əsir
- ( ) iynə
- ( ) cahan
- ( ) balta

---

Sual: “Yaz(maq)” felinə hansı şəkilçilər qoşulduqda vurğu birinci hecaya düşür? (Çəki: 1)

- ( ) – dır, - ıl
- ( ) – sın, - aq
- ( ) -ım, - ar
- (•) – ın, - ma
- ( ) – ır, - acaq

---

Sual: Hansı sıradakı bütün sözlərdə vurğu ilk hecanın üzərinə düşür? (Çəki: 1)

- ( ) ancaq, gömgöy, tüstü
- ( ) büsbütün, yalnız, yalqız
- (•) sapsarı, sanki, lakin
- ( ) amma, nəhayət, bizcə
- ( ) bəzən, görünür, dinməzcə

---

Sual: Hansı sıradakı sözlərdə ahəng qanunu pozulmuşdur? (Çəki: 1)

- ( ) balıqçılıq, günəş, dəniz
- ( ) incə, dünən, qırıq
- ( ) çörək, könül, ürək
- ( ) boyun, sarı, qulaq
- (•) mavi, vüqar, heca

---

Sual: Ahəng qanununa tabe olmayan əsl Azərbaycan sözü hansıdır? (Çəki: 1)

- ( ) islam
- ( ) ehsan
- (•) elat
- ( ) təbabət
- ( ) həngamə

---

Sual: Aşağıdakı sözlərdən neçəsi hecaya düz bölünüb? Hiss-lər, bü-rünc, sül-a-lə, se-vin-cək, a-zad-lıq, apost-rof (Çəki: 1)

- 3
- (x) 4
- 1
- 5
- hamısı düzdür

---

Sual: Vurğudan asılı olaraq mənası dəyişə bilən sözlər cərgəsini seçin: (Çəki: 1)

- lakin, izlə
- (x) klassik, komik
- satirik, durna
- gəlmədən, çalış
- dadlı, romantik

---

Sual: Sözlərdən neçəsi ahəng qanunu pozulmuş əsl Azərbaycan sözləridir: ilan, ılıq, alim, adil, insan, elat, aqil, işartı (Çəki: 1)

- 7
- (x) 4
- 3
- 5
- 6

---

Sual: "İşıq" sözünün fonetik təhlilindəki səhvi göstərin: (Çəki: 1)

- Yazılışı və deyilişi fərqlənir.
- (x) Ahəng qanunu pozulmayan əsl Azərbaycan sözüdür.
- Sətirdən-sətrə keçirilə bilmir.
- İki hecadan ibarətdir.
- [İ], [ı] qapalı sait, [ş], [x] isə kar samitlərdir.

---

Sual: Verilmiş sözlərdən birinin vurğusu düzgün göstərilməmişdir: (Çəki: 1)

- a`bzas
- flekti'v
- (x) simvo'l
- dialo'q
- diale'kt

---

Sual: "Çiçək" sözünə hansı şəkilçi qoşulduqda onun vurğusu dəyişmir? (Çəki: 1)

- – dən
- (x) – dir
- – lər
- – lik
- – li

---

Sual: Orfoqrafik səhvi göstərin: (Çəki: 1)

- quzunun beyni

- beyinin möcüzələri
- oğulun yaxşısı
- sənin oğlun
- (x) Məlikməmmədin nağlı

---

Sual: Hərf və səs tərkibinə görə fərqlənən söz hansıdır? (Çəki: 1)

- (x) müəllif
- elmi
- dəniz
- ölkə
- parça

---

## Bölmə: 03-01

| | |
|---|---|
| Ad | 03-01 |
| Suallardan | 6 |
| Maksimal faiz | 6 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: Azərbaycan dilində sözün tərkibi neçə hissədən ibarət olur? (Çəki: 1)

- bir hissədən
- müxtəlif hissələrdən
- (x) iki hissədən
- bir neçə hissədən
- bütöv olur

---

Sual: Azərbaycan dilində sözün kökü nəyə deyilir? (Çəki: 1)

- sözün leksik mənası olmayan hissəsinə
- sözün məna kəsb etməyən hissəsinə
- (x) sözün məna verən və dəyişməyən hissəsinə
- yeni sözlərə
- hecası olan sözlərə

---

Sual: Tərkibinə görə sözlər dilimizdə neçə hissəyə bölünür? (Çəki: 1)

- bir neçə
- müxtəlif
- (x) iki yerə
- bölünmür
- tərkiblərinə görə

---

Sual: Hansı söz tərkibinə görə mürəkkəb söz deyil? (Çəki: 1)

- itburnu

- ( ) qızılgül
- (•) böyürtkən
- ( ) istiot
- ( ) dəvəquşu

---

Sual: Hansı sözün tərkibi düzgün yazılmışdır? (Çəki: 1)
- ( ) dalba-dal
- ( ) vur-havur
- (•) alış-veriş
- ( ) əl-üz yuyan
- ( ) şüşə-bənd

---

Sual: Azərbaycan dilində sözün kökü və başlanğıc forması necə başa düşülür? (Çəki: 1)
- ( ) ayrıca
- ( ) bölünərək
- (•) fərqləndirilmiş
- ( ) məna daşımır
- ( ) quruluşu olmur

---

## BÖLMƏ: 03-02

| | |
|---|---|
| Ad | 03-02 |
| Suallardan | 7 |
| Maksimal faiz | 7 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: "Nənəm bizə kənddən ağartı gətirmişdi" cümləsindəki düzəltmə söz hansı nitq hissəsindən yaranmışdır? (Çəki: 1)
- ( ) əvəzlikdən
- ( ) saydan
- ( ) sifətdən
- ( ) isimdən
- (•) feldən

---

Sual: Şəkilçilərdən hansı dilimizdə həm də müstəqil söz kimi işlənə bilir? (Çəki: 1)
- (•) -ar2
- ( ) -lan2
- ( ) -laş2
- ( ) -lar2
- ( ) -ın4

---

Sual: Biri ön şəkilçilərə nümunə ola bilməz: (Çəki: 1)

- ( ) anti
- ( ) bi
- (•) gil
- ( ) ba
- ( ) na

---

Sual: Sözün leksik məna ifadə edən, qrammatik şəkilçiyə qədərki hissəsinə…. deyilir: (Çəki: 1)

- ( ) leksik şəkilçi
- ( ) kök
- (•) başlanğıc forma
- ( ) bitişdirici samit
- ( ) tərkibi söz

---

Sual: Morfologiya nədən bəhs edir? (Çəki: 1)

- ( ) söz birləşmələrindən
- ( ) frazeoloji birləşmələrdən
- (•) əsas və köməkçi nitq hissələrindən
- ( ) köməkçi nitq hissələrindən
- ( ) sözün həqiqi və məcazi mənasından

---

Sual: Morfologiyanın tədqiqat obyekti nədir? (Çəki: 1)

- ( ) alınma sözlər
- ( ) cümlə
- (•) söz, onun formaları və nitq hissələri
- ( ) çoxmənalı sözlər
- ( ) xalq yaradıcılığı

---

Sual: Morfologiyada nələr öyrənilir? - sualına verilən cavablardan hansı səhvdir? (Çəki: 1)

- ( ) köməkçi nitq hissələri
- ( ) isimlərin hallanması
- ( ) nitq hissələri və onların dəyişməsi
- (•) dilin lüğət tərkibi
- ( ) əsas nitq hissələri

---

## Bölmə: 03-03

| | |
|---|---|
| Ad | 03-03 |
| Suallardan | 6 |
| Maksimal faiz | 6 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: "Morfologiya" termini dilimizə hansı dildən gəlmişdir? (Çəki: 1)

- ○ ingilis
- ○ rus
- ◉ yunan
- ○ fransız
- ○ alman

---

Sual: Morfologiyada öyrənilir: (Çəki: 1)

- ○ cümlə üzvləri
- ○ yalnız əsas nitq hissələri
- ○ nitq formaları
- ○ sözlərin mənşəyi
- ◉ nitq hissələri və onların dəyişmə qaydaları

---

Sual: Əsas nitq hissələrinə aid olmayan xüsusiyyəti müəyyənləşdirin: 1. Cümlə üzvü olur. 2. Müstəqil suala cavab verir. 3. Yalnız qrammatik mənaya malik olur. (Çəki: 1)

- ○ 1
- ○ 2
- ◉ 3
- ○ 1,2
- ○ 2,3

---

Sual: “Qızartı” ismi hansı nitq hissəsindən əmələ gəlib? (Çəki: 1)

- ○ isim
- ○ zərf
- ○ sifət
- ◉ fel
- ○ əvəzlik

---

Sual: Nitq hissələri haqqında verilmiş fikirlərdən hansı səhvdir? (Çəki: 1)

- ○ Sözlər daşıdıqları leksik-qrammatik mənaya görə nitq hissələrini əmələ gətirirlər.
- ○ Nitq hissələri dilçiliyin morfologiya şöbəsində öyrənilir.
- ○ Köməkçi nitq hissələri qrammatik mənaya malikdir.
- ○ Əsas nitq hissələri leksik və qrammatik mənaya malikdir.
- ◉ Bütün nitq hissələri suala cavab verir.

---

Sual: Nitq hissələrini və onların dəyişməsi qaydalarını öyrənən dilçilik şöbəsi necə adlanır? (Çəki: 1)

- ○ orfoqrafiya
- ◉ morfologiya
- ○ leksikologiya
- ○ sintaksis
- ○ fonetika

---

## Bölmə: 04-01

| | |
|---|---|
| Ad | 04-01 |
| Suallardan | 15 |
| Maksimal faiz | 15 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: Nümunədəki isimlərin hamısına aid olan ümumi cəhəti göstərin: Fazil özünü nağıllarda eşitdiyi əfsanəvi bürclərin üstündə hiss edirdi. (Çəki: 1)

- (•) İsımlərin heç birində mənsubiyyət şəkilçisi yoxdur.
- ( ) İsımlərin hamısı cəmdədir.
- ( ) Nümunədəki isimlərin hamısı ümumi isimdir.
- ( ) Hər üçündə hal şəkilçisi vardır.
- ( ) İsimlərin hamısı milli mənşəlidir.

---

Sual: İsmin adlıq halında olan sözlərlə ifadə olunmaq xüsusiyyəti aşağıdakılardan hansıları üçün ortaqdır? 1. mübtəda 2. tamamlıq 3. feli bağlama 4. ara söz 5. xitab (Çəki: 1)

- ( ) 3,4
- ( ) 1,2
- (•) 1,5
- ( ) 2,3
- ( ) 4,5

---

Sual: “Çanta” sözü hansı cümlədə adlıq haldadır? (Çəki: 1)

- ( ) Çantanı mağazadan aldım.
- (•) Çantam evdə qalıb.
- ( ) Həyətimizdə çanta dükanı var.
- ( ) Çantanın rəngi qaradır.
- ( ) Anar bacısına çanta aldı.

---

Sual: Hansı nümunədə isim işlənməmişdir? (Çəki: 1)

- (•) Vur dedim, öldür demədim.
- ( ) İgid odur, hər əzaba qatlana.
- ( ) Kimsə namərd adama möhtac olmasın.
- ( ) İgid insan qovğasız olmaz.
- ( ) Namərd insana bel bağlama.

---

Sual: Hansı isimlər qeyri-müəyyən təsirlik halda işlənə bilməz? (Çəki: 1)

- ( ) cəm isimlər
- ( ) ümumi isimlər
- (•) xüsusi isimlər
- ( ) tək isimlər

- mücərrəd isimlər

---

Sual: “Qələm” sözü hansı cümlədə mənsubiyyət şəkilçisi qəbul etmişdir? (Çəki: 1)
- (•) Qələmi bizə, demək olar ki, qənim kəsilib.
- Qələmi bu gün silahla əvəz edərək torpaqlarımızı qaytarmalıyıq.
- Qələmi mənə ver.
- Qələmi ədalət və haqq yolunda işlət.
- Qələmi sabah qaytararsan.

---

Sual: Sözlərdən biri xəbərlik şəkilçisi qəbul etmişdir: (Çəki: 1)
- anam
- vəzifəm
- (•) həkiməm
- gözlərim
- könlüm

---

Sual: Hansı birləşmənin birinci tərəfini isimlə əvəz etmək olar? (Çəki: 1)
- mənim vətənim
- sənin torpağın
- (•) onun namusu
- bizim məsləkimiz
- sizin məqsədiniz

---

Sual: Biri feldən düzələn isimdir: (Çəki: 1)
- ağlağan
- (•) qorxu
- düzgün
- yorğun
- gurultu

---

Sual: Saçlarıma yaxşı baxın, ağarmış, Sevgiyə bax, ondan ölüm doğarmış Güvəndiyim dağlara qar yağarmış, Zirvələrin qışına bax, qışına. Nümunədə neçə düzəltmə isim var? (Çəki: 1)
- 4
- 1
- (•) 2
- 3
- 5

---

Sual: Hansı cümlədə həm yiyəlik, həm də təsirlik halda olan söz işlənmişdir? (Çəki: 1)
- Dünən bazar günü idi?
- Qonaqlar evi asan tapdılar.
- (•) O, iclas vaxtı qəzet oxuyurdu.
- Qardaşı çörək dükanına getdi.
- Vətəni, torpağı, xalqı sevin.

Sual: Cümlədə yiyəlik halda olan neçə söz var? Əvvəllər Aqilin qardaşı zavod müdiri idi və onun işlərinin çoxunu mənim dostum Adil görürdü. (Çəki: 1)
- 4
- 3
- 6
- 2
- 5

Sual: Hansı söz isim deyil? (Çəki: 1)
- bilik
- yataq
- bacarıq
- parlaq
- tapşırıq

Sual: Feldən düzələn isimlər cərgəsini göstərin: (Çəki: 1)
- süründürməçilik, soraq
- tanışlıq, yazıçı
- sürgün,yataq
- vergi, bitkiçilik
- meşəlik, qırğın

Sual: İsmin hansı halları şəkilçisiz də işlənə bilir? (Çəki: 1)
- yiyəlik və yönlük
- yiyəlik və təsirlik
- təsirlik və yerlik
- yiyəlik və çıxışlıq
- adlıq və çıxışlıq

## Bölmə: 04-02

| | |
|---|---|
| Ad | 04-02 |
| Suallardan | 14 |
| Maksimal faiz | 14 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: Biri feldən düzələn isim deyil: (Çəki: 1)
- döyüntü
- düşüncə
- hesabdar
- boyaq

- hörgü

---

Sual: "O, bizim qonşumuzun uşağını xilas edəndə əlini yandırdı". Cümlədə mənsubiyyət şəkilçili neçə söz var? (Çəki: 1)

- 5
- 4
- (x) 3
- 2
- 1

---

Sual: Qeyri-müəyyən təsirlik halda işlənmiş isim hansı cümlədədir? (Çəki: 1)

- (x) Fərid anasına məktub yazdı.
- Kitabları müəllimə qaytardım.
- Qələmi çantaya qoydu.
- Məktəb direktoru çıxış etdi.
- Kitab bilik mənbəyidir.

---

Sual: Bu şəkilçilərdən biri yer və cansız əşya bildirən, eləcə də mücərrəd mənalı isimlər yaradır: (Çəki: 1)

- –lı4
- –ça2
- –çı4
- –laq
- (x) –lıq4

---

Sual: Biri insan anlayışı bildirən düzəltmə isimdir: (Çəki: 1)

- dostluq
- (x) dayımgil
- xalaoğlu
- insanlıq
- sənətkarlıq

---

Sual: Aşağıdakılardan hansı yalnız isim kimi işlənir? (Çəki: 1)

- görüş
- yarış
- (x) satış
- baxış
- alış

---

Sual: Təsirlik hallı söz, əsasən, hansı cümlə üzvü vəzifəsində işlənir? (Çəki: 1)

- mübtəda
- xəbər
- təyin
- zərflik
- (x) tamamlıq

Sual: Qeyri-müəyyən yiyəlik hallı sözlərdən birini müəyyən yiyəlik hala çevirmək olmur: (Çəki: 1)

- bulaq suyu
- müstəqillik günü
- el gücü
- məhəbbət odu
- şəhər sakini

---

Sual: Hansı fikir səhvdir? (Çəki: 1)

- İsmin bütün halları xəbərlik şəkilçisi qəbul edərək xəbər ola bilir.
- Çıxışlıq və yönlük hal bir-birinə əks mənalar bildirir.
- Adlıq hallı isim cümlədə təyin də ola bilər.
- Qeyri-müəyyən təsirlik hal felin yanında işlənir.
- Adlıq hal tamamlıq ola bilmir.

---

Sual: Aşağıdakı xüsusiyyətlərdən biri ismə aid deyil: (Çəki: 1)

- cümlədə, əsasən, mübtəda, tamamlıq olmaq
- tək və cəm olmaq
- zamana görə dəyişmək
- mənsubiyyətə görə dəyişmək
- hallanmaq

---

Sual: Yiyəlik hal şəkilçisi qəbul edərkən aşağıdakı isimlərdən hansında dəyişiklik baş vermir? (Çəki: 1)

- beyin
- şəkil
- üzümlük
- ağaclıq
- gözlük

---

Sual: İsimlərdən birində yalnız bir leksik şəkilçi var: (Çəki: 1)

- qoruqçu
- qocalıq
- əkinçilik
- göyərti
- görünüş

---

Sual: İsimlərdən biri yalnız III şəxsin şəxs sonluğunu qəbul edir: (Çəki: 1)

- şagird
- ağac
- pambıqçı
- həkim
- mühəndis

Sual: Biri isimdən düzələn isim deyil: (Çəki: 1)
- yaylaq
- döşəkçə
- dostluq
- üsyançı
- (x) boyaq

## Bölmə: 04-03

| | |
|---|---|
| Ad | 04-03 |
| Suallardan | 11 |
| Maksimal faiz | 11 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: Hansı isim cəm şəkilçisi qəbul etmir? (Çəki: 1)
- ordu
- qazıntı
- (x) müəllimlik
- buzlaq
- xalq

Sual: Biri feldən düzəlmiş isimlərə aid edilə bilməz: (Çəki: 1)
- seçki, istək
- gülüş, görüş
- arayış, asqı
- partlayış, qaçaq
- (x) yazıçı, süründürməçilik

Sual: Feldən düzəlmiş ismi göstərin: (Çəki: 1)
- döyüşçü
- əvəzlik
- qorxulu
- (x) qazanc
- böyüklük

Sual: Cərgələrin birində yalnız sadə isimlər verilmişdir: (Çəki: 1)
- kitab, ayaqqabı
- toyxana, şüşəbənd
- Ağdaş, qar
- şirin, az
- (x) böyürtkən, dağıntı

Sual: Mənsubiyyət şəkilçili söz ismin hansı halında ola bilər? (Çəki: 1)
- adlıq
- yiyəlik
- yönlük
- ismin bütün hallarında
- çıxışlıq

---

Sual: Toplu isimlərdən hansı cəm şəkilçisi qəbul etmir? (Çəki: 1)
- sürü
- ilxı
- ordu
- dəstə
- camaat

---

Sual: Hansı isim quruluşca sadədir? (Çəki: 1)
- yazı
- çəki
- güldan
- dəlil
- sevinc

---

Sual: Hansı sıradakı söz isim deyil: (Çəki: 1)
- bacarıq
- qırıq
- tapşırıq
- sarmaşıq
- pislik

---

Sual: Mənsubiyyət şəkilçili ismi göstərin: (Çəki: 1)
- məndədir
- kitabım
- gedirəm
- gəlim
- kitabı qaytar

---

Sual: Qeyri- müəyyən yiyəlik halda olan isim işlənmiş cümləni göstərin: (Çəki: 1)
- O, kitabdan nağıl oxuyur.
- Məktəb elm ocağıdır.
- Dağın havası xəstəyə faydalı olacaq.
- Aysel ağacdan meyvə dərir.
- İlan təhlükəli sürünəndir.

---

Sual: Biri feldən isim düzəldir: (Çəki: 1)
- –çı 4

- ◉ –ış4
- ○ –stan4
- ○ –ça2
- ○ -lıq4

## Bölmə: 05-01

| | |
|---|---|
| Ad | 05-01 |
| Suallardan | 4 |
| Maksimal faiz | 4 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: Hansı fikir səhvdir? (Çəki: 1)

- ○ Müxtəlif nitq hissələrindən sifət düzəltmək olur.
- ○ “-ımtıl” şəkilçisi sifətin azaltma dərəcəsini əmələ gətirən şəkilçilərdəndir.
- ○ "Solğun" sözü feldən düzələn sifətdir.
- ○ Sifətin cümlədəki əsas vəzifəsi təyin olmaqdır.
- ◉ İsimləşmiş sifətlər morfoloji cəhətdən isim sayılır.

Sual: Kökü fel olan, isimdən düzəlmiş sifəti göstərin: (Çəki: 1)

- ○ gödək
- ○ əsəbiləşən
- ◉ qorxusuz
- ○ qarışıq
- ○ inciklik

Sual: Sadə sifətlər olan bəndi göstərin: (Çəki: 1)

- ○ sınıq, donuq, bükük
- ○ sökük, dönük, əzik
- ○ açıq, qırıq, yoluq
- ○ çapıq, batıq, qalıq
- ◉ ilıq, arıq, yazıq

Sual: Biri feldən düzələn sifətdir: (Çəki: 1)

- ○ duzlu
- ◉ köçkün
- ○ neftçi
- ○ qabaqcıl
- ○ coxluq

## Bölmə: 05-02

| | |
|---|---|
| Ad | 05-02 |

| | |
|---|---|
| Suallardan | 8 |
| Maksimal faiz | 8 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: “Qəlbisınıq adam” birləşməsindəki sifətin morfoloji təhlili ilə bağlı səhv fikir hansıdır: (Çəki: 1)

- ○ Mürəkkəb sifətdir.
- ◉ Birinci tərəfi təsirlik hal şəkilçili isimdir.
- ○ Adi dərəcədədir.
- ○ Necə?, nə cür? suallarından birinə cavab verir.
- ○ İkinci tərəfi feldən düzələn sifətdir.

---

Sual: Hansı cümlədə çoxaltma dərəcəsində olan sifət işlənmişdir? (Çəki: 1)

- ○ Qardaşım tünd çayı çox xoşlayır.
- ○ O lap gözəllik vurğunudur.
- ○ Mən onu ən az sənin qədər tanıyıram.
- ◉ Dünən oxuduğumuz kitab olduqca maraqlı idi.
- ○ Şirin – şirin xəyallara dalmışam .

---

Sual: Məntiqi ardıcıllığı tamamlayın: füsunkar, davakar,fitnəkar,… (Çəki: 1)

- ○ sehrkar
- ○ sənətkar
- ○ sahibkar
- ◉ tələbkar
- ○ bəstəkar

---

Sual: “Sağlam dilənçi xəstə varlıdan xoşbəxtdir” cümləsində sifətdən düzələn neçə sifət var? (Çəki: 1)

- ○ 3
- ◉ 1
- ○ 5
- ○ 2
- ○ 4

---

Sual: Sifətlərdən birini düzəltmə hesab etmək olmaz: (Çəki: 1)

- ○ əxlaqi
- ◉ qiyabi
- ○ bildirki
- ○ qabaqcıl
- ○ tərbiyəvi

---

Sual: Cümlələrdən birində iki düzəltmə sifət işlənmişdir: (Çəki: 1)
- (x) Zəhmətkeşlərin yorucu əməyi yüngülləşdirilməlidir.
- ( ) Bu diyar Azərbaycanın ən gözəl guşələrindən biridir.
- ( ) Naxçıvan torpağında bol məhsullu tarlalar var.
- ( ) Şəhər yadellilərin hücumuna mətanətlə sinə gərmişdir.
- ( ) Bədxah qonşularımız bu gün də bizə rahatlıq vermirlər.

---

Sual: Çoxaltma dərəcəsində olan sifətin isimləşdiyi cümləni göstərin: (Çəki: 1)
- ( ) Yenə də o çox gözəl oxudu.
- ( ) Çox əzilmişləri üstdən yığdılar.
- ( ) Ən maraqlı kitablar əldə idi.
- (x) Almaları seçərək qıpqırmızılarını özüm götürdüm.
- ( ) Bapbalaca boyu var, Dam dolusu toyu var.

---

Sual: Azaltma dərəcəli sifət hansı cümlədə işlənmişdir? (Çəki: 1)
- ( ) Dəniz kənarında narın və xırda qumlar var idi.
- (x) Bu yarpağın rəngi sarı, o biri yarpaq isə yaşıltəhərdir.
- ( ) Elə bir ah çəkdi axşam küləyi, Susdu igidimin şair ürəyi.
- ( ) Qulluqçu Bahar içəri daxil olur.
- ( ) Meydançada çox gərgin oyun gedirdi.

---

## Bölmə: 05-03

| | |
|---|---|
| Ad | 05-03 |
| Suallardan | 3 |
| Maksimal faiz | 3 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: Azaltma dərəcəli hansı sifətlər sintaktik yolla yaranmışdır? 1. açıq-sarı 2. dümqırmızı 3. göyümtül 4. yaşıltəhər 5. yaxşıraq (Çəki: 1)
- ( ) 2,4
- ( ) 3,5
- ( ) 2,3
- ( ) 1,3
- (x) 1,4

---

Sual: Sifətlərdən biri ümumi məna qrupundan kənara çıxır: (Çəki: 1)
- ( ) bənövşəyi
- ( ) zoğalı
- ( ) innabı
- (x) çərkəzi
- ( ) qəhvəyi

---

Sual: Biri zahiri görkəm bildirən sifətdir: (Çəki: 1)
- ədəbsiz
- gödək
- əməli
- hörmətcil
- qudurğan

---

## Bölmə: 06-01

| | |
|---|---|
| Ad | 06-01 |
| Suallardan | 5 |
| Maksimal faiz | 5 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: Hansı bənddə kəsr sayı işlənib? (Çəki: 1)
- Şeir müsabiqəsində birincilərə mükafat verildi.
- XIX əsrin əvvəllərində ədəbiyyatımızda maarifçilik cərəyanı yarandı.
- Bağın yarısında meyvə ağacları bitmişdir.
- Üç- dörd adamın fikri xalqın rəyi demək deyil.
- Toplanmış vəsaitin ikidə biri körpələr evinə verildi.

---

Sual: Hansı cümlədə say sifətə aiddir? (Çəki: 1)
- Yüzlərcə cavan onun müalicəsindən sonra sağalıb.
- Mən ona çox yaxşılıqlar etmişəm.
- Minlərlə uşaq aclıqdan əziyyət çəkir.
- Son dövrlərdə çox yaxşılaşmısan.
- Qapının ağzında xeyli adam dayanmışdır.

---

Sual: Sıra sayları haqqındakı fikirlərdən biri səhvdir: (Çəki: 1)
- Əşyanın sırasını bildirir.
- Neçənci? sualına cavab olur.
- İsimləşə bilir.
- Quruluşca sadə, düzəltmə və mürəkkəb olur.
- Həştad, milyon, milyard kimi miqdar sayları alınmadır.

---

Sual: Düzəltmə say hansıdır? (Çəki: 1)
- birincilik
- yüzlərcə
- otuz
- otuz ikinci
- ortancıl

---

Sual: Hansı sıra sayının yazılışı səhvdir? (Çəki: 1)
- 33-cü
- XV
- V-ci
- 2-ci
- altmışıncı

---

## Bölmə: 06-02

| | |
|---|---|
| Ad | 06-02 |
| Suallardan | 6 |
| Maksimal faiz | 6 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: Hansı cümlələrdə sıra sayları isimləşmişdir? 1. Birinci addıma lovğalananlar, ikinci addımda yıxılacaqdır. 2. Bizimkilər dördüncü yerdə dayanmışdılar. 3. On birincilər bu yeniliyi uğurla qarşıladılar. 4. Onuncular şagirdlərə hədiyyə gətirmişdilər. 5. Biz səkkizincilərlə fəxr edirik. (Çəki: 1)
- 1,2,3
- 3,4,5
- 1,2,3,5
- 3,5
- 1,3,5

---

Sual: Hansı bənddə numerativ söz düzgün işlənməmişdir? (Çəki: 1)
- iki sap mirvari
- bir nüsxə yazı
- bir dəst ayaqqabı
- üç damcı göz yaşı
- dörd göz otaq

---

Sual: Hansı cavabda numerativ söz kəmiyyət fərqi əmələ gətirib? (Çəki: 1)
- bir sürü qoyun
- üç dənə kitab
- beş baş keçi
- üç – dörd dənə qələm
- on nəfər qız

---

Sual: Say hansı nümunədədir? (Çəki: 1)
- Tək sən bu işi bacarmazsan.
- Bir çox arzularım gözümdə qaldı.
- Bu ilki yarışda birincilik uğrunda mübarizə gedir.

- ○ Mümkün qədər az danış.
- ○ İstəyinə çatmaq üçün çox çalışmalısan.

---

Sual: Qeyri- müəyyən miqdar sayı haqqında hansı fikir səhvdir? (Çəki: 1)

- ◉ Quruluşca yalnız sadə və mürəkkəb olur.
- ○ "Üç-dörd, beş-altı" tipli qeyri-müəyyən miqdar saylarından sonra numerativ söz işlənə bilər.
- ○ Defislə yazılan qeyri-müəyyən miqdar saylarına təqribi saylar da deyilir.
- ○ "Az" və "çox" saylarından əvvəl "ən, lap,daha" ədatları da işlənə bilir.
- ○ "Xeyli, bir qədər" saylarından sonra gələn isimlər təkdə işlənir.

---

Sual: Hansı bənddə numerativ söz düzgün islənməmişdir? (Çəki: 1)

- ○ iki göz otaq
- ○ bir cüt corab
- ○ iki parça qənd
- ○ üç qaşıq dərman
- ◉ beş baş ailə

---

## Bölmə: 06-03

| | |
|---|---|
| Ad | 06-03 |
| Suallardan | 7 |
| Maksimal faiz | 7 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: Hansı cümlədə say isimləşmişdir? (Çəki: 1)

- ○ O,onuncu sinifdə oxuyur.
- ○ Altıncı mərtəbədə təmir gedir.
- ◉ Mənim dostlarımdır minlər, milyonlar.
- ○ Zalda ikinci sıra boşdur.
- ○ Bizə on nəfər adam lazımdır.

---

Sual: Buraxılmış yerə hansı numerativ sözlər uyğun gəlir? Üç …. otağı var, içində də cəmi üç … yorğan-döşəyi. (Çəki: 1)

- ○ Dənə, göz
- ○ Ədəd, cüt
- ○ Göz, tikə
- ○ Dənə, dəstə
- ◉ Göz, dəst

---

Sual: Hansı cümlədə eyni sözü həm müəyyən miqdar sayı, həm də kəsr sayının tərkib hissəsi kimi düşünmək olar? (Çəki: 1)

- ○ Bu payızda məhsulun cəmi üçdə ikisini yığa bilmişik.
- ○ Üçdə ikisi sənə çatacaq.
- ○ Vəsaitin tam yarısını körpələr evinə xərclədilər.
- ◉ Bağdan alma dərmisənsə, onda birini mənə versən, nə olar ki?
- ○ Beş tam onda üçdən beş tam onda iki çıxıldıqda cavab beş tam onda bir edir.

---

Sual: Qoşalıq məzmunu daşımaq üçün müəyyən miqdar sayları ilə isim arasında hansı sözlər işlənir? 1. ədəd 2. cüt 3. baş 4. dənə 5.nəfər 6.dəst (Çəki: 1)

- ○ 1,3
- ◉ 2,6
- ○ 4,5
- ○ 1,4
- ○ 2,3

---

Sual: Hansı cümlədə quruluşca mürəkkəb say işlənməmişdir? (Çəki: 1)

- ◉ Yüzlərlə, minlərlə insan cavab gözləyirdi.
- ○ Üç – dörd uşaq həyətdə oynayırdı.
- ○ Bu məlumatı yüz iyirmi beşinci səhifədən oxumuşam.
- ○ Bir çox tədqiqatçılar bu fikri təsdiq edirlər.
- ○ Məclisə yüz nəfər gəlmişdisə, onların bəlkə də üçdə ikisi mətləbdən xəbərsiz idi.

---

Sual: Sayla sifət üçün ortaq əlamətlər hansılardır? 1. Əlamət bildirmək 2. Keyfiyyət bildirmək 3. Cümlə üzvü ola bilmək 4. Cümlədə təyin olmaq 5. İsimləşmək (Çəki: 1)

- ○ 1,2,3
- ◉ 3,4,5
- ○ 1,3,4
- ○ 2,4,5
- ○ 1,2,5

---

Sual: “Kim bizi diqqətlə dinləsə, çox sirlərdən agah olub, çox işlər barədə bilər”cümləsində işlənmiş sayın məna növünü göstərin: (Çəki: 1)

- ◉ qeyri-müəyyən miqdar sayı
- ○ müəyyən miqdar sayı
- ○ sıra sayı
- ○ kəsr sayı
- ○ isimləşmiş say

---

## BÖLMƏ: 07-01

| | |
|---|---|
| Ad | 07-01 |
| Suallardan | 4 |
| Maksimal faiz | 4 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: Səhv fikirləri seçin: 1. Şəxs əvəzlikləri hallanır və mənsubiyyətə görə dəyişir. 2. "Çox, onlarla, çoxlu" qeyri-müəyyən miqdar saylarıdır. 3. "Öz, hərə, hamı, filan" təyini əvəzliklərdir. 4. Sıra sayları quruluşca sadə, düzəltmə, tərkibi olur. 5. "Az" və "çox" sayları "ən, lap, daha" ədatları ilə işlənə bilər. (Çəki: 1)

- 1,3,5
- 1,3,4
- 1,4, 5
- 2,5
- 3,5

---

Sual: Düzəltmə əvəzlikləri göstərin: (Çəki: 1)

- hər kim, kimi
- mənsiz,özümünkü
- bizimlə, nə isə
- neçənci, kimsə
- kimsəsiz, birinci

---

Sual: Hallana bilməyən əvəzlikləri göstərin : (Çəki: 1)

- mən, biz
- bəzi, həmin
- kim isə, biri
- o, bu
- kim, nə

---

Sual: Biri əvəzlik deyil: (Çəki: 1)

- filan
- elə
- bir sıra
- özümüzün
- heç nə

---

## Bölmə: 07-02

| | |
|---|---|
| Ad | 07-02 |
| Suallardan | 8 |
| Maksimal faiz | 8 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: Aşağıdakı əvəzliklərin biri yalnız sifətin yerində işlənə bilir: (Çəki: 1)

- kimsə
- hamı

- belə
- həmin
- elə

---

Sual: Düzəltmə əvəzlik hansı cümlədə işlənmişdir? (Çəki: 1)
- Məndən söyləməkdir, səndən eşitmək.
- Bu, neçənci sınaqdır?
- Nə qədər gözlədim, gəlib çıxmadın.
- Hər kim yüz il yaşamasa, günah onun özündədir.
- Onlar hamını aldada bilərlər.

---

Sual: Əvəzliyin mənaca hansı növü əvəzliyin özünün də yerində işlənə bilər? (Çəki: 1)
- işarə əvəzliyi
- təyini əvəzlik
- sual əvəziliyi
- şəxs əvəzliyi
- qeyri-müəyyən əvəzlik

---

Sual: “O, sözsüz ki, danışacaq” cümləsində “o” əvəzliyindən sonra nə üçün vergül qoyulmuşdur? (Çəki: 1)
- şəxs əvəzliyi olduğu üçün
- şəxs əvəzliyini işarə əvəzliyindən fərqləndirmək üçün
- xəbərlə uzlaşma əlaqəsində olduğu üçün
- özündən sonra modal söz işləndiyi üçün
- cümlənin mübtədası olduğu üçün

---

Sual: Hansı cümlədə qeyri-müəyyən əvəzlik işlənib? (Çəki: 1)
- Mən bacardığımı etmişəm.
- Özün barədə düşünməyin məsləhətdir.
- Bu sənət əsəri hədiyyədir.
- Bütün bu qarma-qarışıqlıqda kimsə ağlayırdı.
- O tərəfdən də mühasirədəyik.

---

Sual: Mən, biz, hərə, hamı, öz. Neçə əvəzlik heç bir şəxsin mənsubiyyət şəkilçisini qəbul etmir ? (Çəki: 1)
- 2
- 5
- 3
- 1
- heç biri

---

Sual: Biri ismi əvəz edə bilməz: (Çəki: 1)
- şəxs əvəzlikləri
- qeyri-müəyyən əvəzliklər
- təyini əvəzliklər

- qayıdış əvəzliyi
- sual əvəzliyi

---

Sual: Sifəti əvəz etdikdə təyin, zərfi əvəz etdikdə tərzi-hərəkət zərfliyi olan, mənsubiyyət şəkilçisi qəbul etdikdə ismi əvəz edən əvəzliklər hansıdır? (Çəki: 1)

- o, bu
- hər kim,hər nə
- öz, filan
- hər şey, hər nə
- elə, belə

---

## Bölmə: 07-03

| | |
|---|---|
| Ad | 07-03 |
| Suallardan | 3 |
| Maksimal faiz | 3 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: Hansı cümlədə “bu” əvəzliyindən sonra vergül qoyulmalıdır? (Çəki: 1)

- Bu dövrün adamı deyiləm ki, mən.
- Bu da belə bir ömürdür, yaşadım.
- Bu öz əlimlə bəslədiyim sevgidir.
- Bu gizli eşq ilə yaşayacağam.
- Bu həm də müəllimin son vəsiyyəti idi.

---

Sual: “O” əvəzliyindən sonra hansı cümlələrdə vergülün işlənmə məqamı səhvdir? 1. O, məni heç anlamaq istəmir. 2. O, da bizim dostlarımızdandır. 3. O, ki sənin əleyhinə danışmaqla məşğuldur. 4. O, barədə səninlə sonra danışarıq. 5. O, qapıda qardaşı ilə qarşılaşdı. (Çəki: 1)

- I,V
- II,III,V
- III,IV, V
- II,III,IV
- IV,V

---

Sual: İşarə əvəzlikləri hansı sırada verilmişdir? (Çəki: 1)

- mən, sən, o, biz, siz, onlar
- hamı, bəziləri, kimsə, birisi, kimi
- necə?, nə cür?, hansı?, kim?, nə?, hara?
- o, bu, elə, belə, həmin
- öz, belə, birisi, kimsə

---

## Bölmə: 08-01

| | |
|---|---|
| Ad | 08-01 |
| Suallardan | 16 |
| Maksimal faiz | 16 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: Məsdərin felə aid xüsusiyyətlərindən biri səhvdir: (Çəki: 1)
- ○ Felin təsriflənən formaları ilə eyni leksik mənanı bildirir.
- ○ Təsdiq və inkar olur.
- ○ Felin müxtəlif qrammatik məna növlərində olur.
- ◉ Mənsubiyyətə görə dəyişir.
- ○ Təsirli və təsirsiz olur.

---

Sual: Biri feli bağlama şəkilçisi deyil: (Çəki: 1)
- ◉ - malı2
- ○ - ıb4
- ○ -anda2
- ○ -ınca4
- ○ - dıqda4

---

Sual: Hansı bənddə təsriflənməyən fel tərkib əmələ gətirmişdir ? (Çəki: 1)
- ◉ Yazıram, oxuyun, dinləyin məni, Könül söyləyəni, könül deyəni.
- ○ Bükmüşdü boynunu saralmış sünbül.
- ○ Sən bizim ellərin ruhuna bir bax,Bizdən inciməmiş bir əziz qonaq.
- ○ Səni tutdum, uçub getdin, Əllərimdə tozun qaldı.
- ○ Bilirik, tutulub o yaman dərdə.

---

Sual: Hansı cümlələrdə feli bağlama işlənmişdir ? I Yana-yana çaldı "Yanıq Kərəmi". II Qoca yavaş-yavaş sözə başladı. III Heç nəyə əhəmiyyət vermədən qaçırdım. IV Ötən günlərimi qaytaraydılar. V Biz evə çatar – çatmaz hava dəyişdi. (Çəki: 1)
- ○ II, IV, V
- ○ I, II, V
- ○ I, III, IV
- ○ I, II, III
- ◉ I, III, V

---

Sual: Yazıq o şəxsə ki, sevmir nəsihət, Nəsihət sevənlər qazanar sərvət! (S.Şirazi) Nümunədəki feli sifət tərkibinin sintaktik funksiyasını müəyyənləşdirin: (Çəki: 1)
- ○ təyin
- ◉ mübtəda
- ○ zərflik
- ○ xəbər
- ○ tamamlıq

Sual: Cümlələrin birində – ıb 4 feli bağlama şəkilçisi deyil: (Çəki: 1)
- O hamı ilə görüşüb babasına yaxınlaşdı.
- Artıq unudulub ötən günlərim.
- Ağsaqqal qonaqları qarşılayıb içəri dəvət etdi.
- Nurgül utanıb başını aşağı saldı.
- Dostlar xudahafizləşib ayrıldılar.

---

Sual: İsimləşmiş feli sifət hansı cümlədədir ? (Çəki: 1)
- İllərin qocalda bilmədiyi bu müəllimin qarşısında baş əyirik.
- Danışan tribunadan düşdü.
- Ötən xatirələrə vurğunam, inan.
- Vətən doğulduğun torpaqdır.
- Sındırılmış bir budağın, Söndürülmüş ocağın da yaddaşı var. (X.R.Ulutürk)

---

Sual: Hansı cümlələrdəki feli sifətlər isimləşmişdir ? 1. Eşitdiklərim məni çox təəccübləndirdi. 2. Qorxan gözə çöp düşər. 3. Binadan gözəl olmayan telin qədrini nə bilər. 4. Sabah görüləsi işlərimiz çoxdur. (Çəki: 1)
- 1,2
- 2,4
- 1,3
- 3,4
- 2,3

---

Sual: Hansı feli sifət şəkilçiləri felin xəbər şəklinin şəkilçiləri ilə omonimdir ? (Çəki: 1)
- - mış4, - acaq2
- -ası2, - malı2
- -ası2, - ar2
- -an2, - acaq2
- -dıq4, -ım4, -mış4

---

Sual: Hansı cümlədə feli sifət təyin vəzifəsindədir ? (Çəki: 1)
- İşləməyən dişləməz.
- Yatmışları razı deyiləm kimsə oyatsın.
- Çox gəzən çox bilər.
- Çalışmayan şagird uğur qazana bilməz.
- Nəsihət sevənlər qazanar sərvət!

---

Sual: Hansı cümlədə məsdər onun üçün xarakterik olmayan xüsusiyyəti daşıyır ? (Çəki: 1)
- Sizin gələcəyiniz yaxşı oxumağınızdan asılıdır.
- Belə danışmaqlarına fikir verməyin.
- Dərsə gecikməmək üçün çox çalışdım.
- Susmaq razılıq əlamətidir.

- ○ Az danışmaq qızıldır.

---

Sual: Feli bağlamanın zərfə aid xüsusiyyətlərini göstərin: (Çəki: 1)

- ○ təsirli və təsirsiz olmaq
- ○ növ şəkilçilərini qəbul etmək
- ◉ hərəkətin tərzini və ya zamanını bildirmək
- ○ təsdiq və inkar ola bilmək
- ○ ətrafına söz toplaya bilmək

---

Sual: Hansı cümlələrdə feli bağlama hərəkətin tərzini bildirir? I Əlini üzünə qoyub oturmuşdu. II İşini qurtarıb evə getmişdi. III Natiq əlindəki kağıza baxmadan danışırdı. IV Dərsini öyrənəndə mənə xəbər verərsən. V Uşaq heç kimdən çəkinmədən danışırdı. (Çəki: 1)

- ○ I, III, IV
- ◉ I, III, V
- ○ II, IV,V
- ○ III, IV, V
- ○ II, III

---

Sual: Dərd dərədi, dərə mindi, Çəyirtkələr dəvə mindi. Dovşanlıq ki dəbə mindi, Göy talaya əlik qalxmaz. Hansı misrada xəbər şəklində işlənən fel yoxdur? (Çəki: 1)

- ◉ I
- ○ II, III
- ○ III, IV
- ○ I, II
- ○ IV

---

Sual: Hansı cümlədəki fel birgəlik növdədir ? (Çəki: 1)

- ○ Dostlar bir yerdə işlədilər.
- ○ Çox şükrü var, genə gəldux görüşdux, Ötənlərdən, keçənlərdən soruşdux.
- ◉ Zaldakı bütün tamaşaçılar gülüşdü.
- ○ Qoşunlar şəhərdən çıxan kimi hər kəs bir-birinə qarışdı.
- ○ Çeynədilər, didişdilər, diddilər, Bir-birini al qana qərq etdilər.

---

Sual: “Gələcəksən, oxuyacaq” fellərinin zamanını müəyyənləşdirin: (Çəki: 1)

- ○ şühudi keçmiş zaman
- ○ nəqli keçmiş zaman
- ◉ qəti gələcək zaman
- ○ qeyri-qəti gələcək zaman
- ○ indiki zaman

---

## Bölmə: 08-02

| | |
|---|---|
| Ad | 08-02 |
| Suallardan | 20 |

| | |
|---|---|
| Maksimal faiz | 20 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: Feldən düzələn fel hansı cümlədə işlənib ? (Çəki: 1)
- (•) Eh, bu uşaqlar qocaltdı məni.
- ( ) Aşıqlar arasında deyişmə davam edir.
- ( ) Döyüş başladı, nə başladı!
- ( ) Sən onsuz da düzələn deyilsən!
- ( ) Ara çoxdan sakitləşmişdir.

---

Sual: Şeir parçasında işlənmiş təsirli feli göstərin: Bizə qəhət olmaz bir parça çörək. Qorxma, bəxtinə də söyləmə qara: Kaş ki düşməyəydim bu saraylara. Yanıldım, doğrusu, uyub aldandım… (S.Vurğun) (Çəki: 1)
- ( ) qəhət olmaz
- ( ) qorxma
- (•) söyləmə
- ( ) düşməyəydim
- ( ) yanıldım

---

Sual: Hansı cümlədə feli sifət tərkibi işlənmişdir ? (Çəki: 1)
- ( ) Açılmış vərəqdir açılan səhər, Qulaq as, gör sənə söyləyir nələr…
- (•) Vətən torpağını qoruyan əsgər, Dırnaqla, diş ilə qazıyar səngər.
- ( ) Sözlərimdən hansısa qocaya təsir etdi, Gözünü mənə dikib, bir xeyli fikrə getdi.
- ( ) Hər gün bir kəşf etmək, nə isə yeni, İşıqlı sabaha aparar səni.
- ( ) Gözü yumub – açınca, baş açmıram, nə işdi? Tamamilə həyatım dəyişdikcə dəyişdi.

---

Sual: "İsə" hissəciyi qoşula bilmir ? 1. Xəbər şəklinə 2. Arzu şəklinə 3. Vacib şəklinə 4. Şərt şəklinə 5. Əmr şəklinə 6. Lazım şəklinə (Çəki: 1)
- ( ) 1,2,3
- (•) 2,4,5
- ( ) 4,5,6
- ( ) 3,4,5
- ( ) 2,4,6

---

Sual: Təsirli və təsirsiz fellər üçün ortaq olan cəhət hansıdır ? (Çəki: 1)
- ( ) Hər ikisi ismin təsirlik halında olan sözləri tələb edir.
- (•) Hər ikisi ismin yönlük, yerlik, çıxışlıq hallarında olan sözlərlə sintaktik əlaqəyə girir.
- ( ) Həm təsirli, həm də təsirsiz fellər eyni şəkilçilərin vasitəsi ilə birindən digərinə keçə bilir.
- ( ) Hər ikisindən felin şəxssiz növünü düzəltmək olur.
- ( ) Hər ikisindən felin birgəlik növünü düzəltmək olur.

---

Sual: "Mən heç vaxt səndən belə fərasətsizlik gözləməzdim". Cümlədəki felin morfoloji təhlilindəki səhvi göstərin: (Çəki: 1)

- (selected) Qeyri-qəti gələcək zamandadır.
- Quruluşca düzəltmədir.
- I şəxsin təkindədir.
- İnkardadır.
- Məlum növdədir.

---

Sual: Biri felin əmr şəklinin şərti sxemidir: (Çəki: 1)

- felin kökü və ya başlanğıc forması + a2 + şəxs sonluğu
- felin kökü və ya başlanğıc forması + ası2 + şəxs sonluğu
- (selected) felin kökü və ya başlanğıc forması + şəxs sonluğu
- felin kökü və ya başlanğıc forması + acaq2 + şəxs sonluğu
- felin kökü və ya başlanğıc forması + malı2 + şəxs sonluğu

---

Sual: “Gedirsənsə” sözünün morfoloji təhlilində harada səhvə yol verilmişdir? (Çəki: 1)

- (selected) "– sə" şərt şəklinin şəkilçisi
- "- ir" indiki zaman şəkilçisi
- Təsirsiz feldir, təsdiqdədir.
- Sözün kökü "get" felidir.
- "- sən" şəxs şəkilçisi

---

Sual: Şərt şəklində işlənən feli göstərin: (Çəki: 1)

- oxudursa
- anmalıdırsa
- çıxırsa
- qaçasıyam
- (selected) yazılsa

---

Sual: Felin xəbər şəklindəki bu zaman şəkilçilərindən biri həm də müstəqil leksik məna bildirir: (Çəki: 1)

- indiki zaman şəkilçisi
- nəqli keçmiş zaman şəkilçisi
- şühudi keçmiş zaman şəkilçisi
- (selected) qeyri-qəti gələcək zaman şəkilçisi
- qəti gələcək zaman şəkilçisi

---

Sual: “Danışmamışdı” felinin morfoloji təhlilindəki səhvi göstərin: (Çəki: 1)

- Nitq bildirən feldir.
- Quruluşca sadədir.
- Təsirlidir.
- İnkardadır.
- (selected) Sözün kökü "danış", "-ma" inkar şəkilçisi, "-mış" nəqli keçmiş zaman, "-dı" şühudi keçmiş zaman şəkilçisidir.

---

Sual: Hansı cümlədə eyni omonim şəkilçi felin həm təsriflənən, həm də təsriflənməyən formasını əmələ gətirmişdir? (Çəki: 1)

- Mətbəxdən bayram süfrəsi üçün hazırlanmış şirniyyatın, süzülüb dəmlənmiş plovun ətri duyulur.
- Biz qayıdana kimi otaqlar səliqəyə salınmış, süfrə açılmışdı.
- Yazılmış məktubu ünvanına çatdırmalıyam.
- Görüləsi işlərimi qaydaya salıb məzuniyyətə gedəsiyəm.
- Şamlar əriyib xonçanın kənarına yayılmışdı.

---

Sual: Felin əmr şəklinin xüsusiyyətləri ilə bağlı səhv cavabı göstərin: (Çəki: 1)

- Felin əmr şəkli I şəxsdə -am2, -ıq4 şəkilçilərini qəbul edir.
- Felin əmr şəklinin xüsusi şəkilçisi yoxdur.
- Felin əmr şəklinin mənasında gələcək zaman anlayışı da var.
- Felin əmr şəkli II şəxsin təkində heç bir şəkilçi qəbul etmir.
- Felin əmr şəkli zamanlar üzrə dəyişmir.

---

Sual: “-dıq” şəkilçisi mənsubiyyət şəkilçisi ilə birlikdə işlənərək aşağıdakılardan hansını əmələ gətirir? (Çəki: 1)

- şühudi keçmiş zamanı
- sifəti
- feli sifəti
- nəqli keçmiş zamanı
- feli bağlamanı

---

Sual: Feli bağlama işlənən cümlələri göstərin: I Həkim yanıqlı bir ah çəkib söhbətə başladı. II Əsgərlər cəsarətlə irəli atıldılar. III Sözünü çəkinmədən demək də hünər istəyir. IV Gələn qonaqları çağırın qabağa. V Asta-asta sürünən pişik sərçəni tutdu. (Çəki: 1)

- I, II, V
- II, III, IV
- III, IV, V
- II, III, V
- I, III

---

Sual: “Deyəsən, mənə köməyə gəlibsiniz” cümləsinin xəbəri hansı zamanda olan fellə ifadə olunmuşdur? (Çəki: 1)

- nəqli keçmiş zaman
- şühudi keçmiş zaman
- indiki zaman
- qəti gələcək zaman
- qeyri-qəti gələcək zaman

---

Sual: Hansı feli sifət şəkilçiləri omonim deyil ? (Çəki: 1)

- –mış4, -acaq2
- -ası2, -malı2
- -ası2, - acaq2

- (x) -an2, -dığım4
- ( ) –an2, -mış4

---

Sual: Sadə feli göstərin: (Çəki: 1)
- ( ) yazışmaq
- ( ) vuruşmaq
- ( ) çəkişmək
- (x) barışmaq
- ( ) görüşmək

---

Sual: –ar (-ər) felin hansı zamanının şəkilçisidir? (Çəki: 1)
- ( ) indiki zaman
- (x) qeyri-qəti gələcək zaman
- ( ) qəti gələcək zaman
- ( ) şühudi keçmiş zaman
- ( ) nəqli keçmiş zaman

---

Sual: Məsdərin ismə aid xüsusiyyətlərindən biri səhvdir: (Çəki: 1)
- ( ) Hallanır.
- ( ) Cümlədə mübtəda vəzifəsində işlənir.
- ( ) Mənsubiyyətə görə dəyişir.
- ( ) Cümlənin xəbəri vəzifəsində çıxış edir.
- (x) Cəmlənir.

---

## BÖLMƏ: 08-03

| | |
|---|---|
| Ad | 08-03 |
| Suallardan | 13 |
| Maksimal faiz | 13 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: “Oxudacaqlarsa” felinin təhlili ilə bağlı səhv fikirləri göstərin : 1. Mürəkkəb feldir. 2. Xəbər şəklində “isə” hissəciyi ilə işlənib. 3. Felin şərt şəklindədir. 4. Leksik şəkilçi qəbul etmişdir. 5. Təsirli feldir. 6. Cəm və qeyri-qəti gələcək zaman şəkilçiləri ilə işlənmişdir. (Çəki: 1)
- (x) 1,3,6
- ( ) 2,4,5
- ( ) 2,4,6
- ( ) 4,5,6
- ( ) 3,4,5

---

Sual: Təsirli felləri göstərin: 1. düzülmək 2. düzmək 3. düzəltmək 4.düzsələr 5. düzərkən

6. düzəlmək (Çəki: 1)
- 1,2,3,6
- 2,3,4
- 1,5,6
- 1,3,5,6
- 1,3,6

---

Sual: Təsriflənən fellərə aid deyil : 1. Şəxsə və kəmiyyətə görə dəyişmək 2. Təsdiq və inkarda olmaq 3. Həm ismi, həm feli xəbər olmaq 4. Feldən başqa, digər bir nitq hissəsinin əlamətlərini daşımaq 5. Tərkib əmələ gətirmək 6. Leksik və qrammatik mənaya malik olmaq (Çəki: 1)
- 3,4,5
- 1,4,5
- 4,5,6
- 1,4,6
- 2,4,6

---

Sual: İcbar növ fellər haqqında fikirlərdən biri səhvdir: (Çəki: 1)
- Yalnız təsirli fellərdən düzəlir.
- "- dır4" ,"-t" şəkilçisi ilə düzəlir.
- Felin təsirli fellərdən yaranıb təsirli olaraq qalan tək məna növüdür.
- İşin başqası tərəfindən icra edildiyini bildirir.
- Quruluşca sadə olur.

---

Sual: “idi, imiş” hissəcikləri artırıla bilmir: (Çəki: 1)
- əmr, xəbər şəkillərinə
- vacib, lazım, şərt şəkillərinə
- əmr, arzu, şərt şəkillərinə
- əmr şəkli və şühudi keçmiş zamana
- arzu, lazım, vacib şəkillərinə

---

Sual: Cümlədəki fellərdən birinin inkarı “deyil” sözü ilə yaranır: (Çəki: 1)
- Bir az tez gəlsə idi, yaxşı olardı.
- Əgər yaxşı həkimsənsə, onu da sağalt.
- Mən bu nağılları çox eşitmişəm.
- Onsuz da bu sözləri sənə deyəsiyəm.
- Kaş bu günü görməyəydin.

---

Sual: Təsirli fellərdən düzəlmiş təsirsiz felləri seçin: (Çəki: 1)
- geyinmək, soyunmaq, dəyişdirmək
- içilmək, sevilmək, əzilmək, düzülmək
- düzdürmək, bezdirmək, yayınmaq, süzülmək
- cəsarətlənmək, söylənmək, hirslənmək, közləmək
- qoparmaq, uçurmaq, qaçırmaq, köçürtmək

---

Sual: “Çarpayıya uzanan xəstə inləyərək həkimdən kömək gözləyirdi” cümləsində felin hansı təsriflənməyən forması işlənməmişdir? (Çəki: 1)
- məsdər, feli sifət
- feli sifət
- feli bağlama
- (selected) məsdər
- məsdər, feli bağlama

---

Sual: İsimləşmiş feli sifət hansı cümlədədir? (Çəki: 1)
- Amma bunların hamısından çox onu şad edən şey ürəyində bəslədiyi sirr idi.
- Axırda Nurəddinin səbirsizliklə gözlədiyi gün gəlib çatdı.
- Gülpərinin təşviqi getdikcə artırdı.
- (selected) Oxuyanlar həmişə irəli gedirlər.
- Güc birlikdədir.

---

Sual: Hansı nümunələrdə feli bağlama işlənmişdir? I Deyə-deyə yıxacaqsan evimizi. II Müəllim asta-asta izah etdi. III Mən ürəyəm, döyünməsəm ölərəm. IV Bütün düşündüklərimi onunla qarşılaşanda deyəcəyəm. V Şahmatçı taktikanı dəyişib, o, indi piyadalarını qorumaqla məşğuldur. (Çəki: 1)
- I, II
- (selected) I, IV
- III, V
- III, IV
- I, IV, V

---

Sual: Hansı cümlədə feli sifət tərkibi işlənmişdir : (Çəki: 1)
- Söylənmiş fikirlər azdırır səni, Bir danış özündən söz varsa yeni.
- (selected) Məni gəncliyimdən qoparan illər, Ömrümdən illəri aparan illər.
- Eybi yox, qoy onlar hələ danışsın,Puç olmuş ümidlər üçün çalışsın.
- Dağılmış binalar, sökülmüş evlər,Məni düşündürür yenə sərasər.
- Sözlərimdən hansısa qocaya təsir etdi, Gözünü mənə dikib, bir xeyli fikrə getdi.

---

Sual: "Heç zaman görməzsən namərddən xeyir" misrasında "görməzsən" feli hansı zamandadır? (Çəki: 1)
- indiki zaman
- qəti gələcək zaman
- (selected) qeyri-qəti gələcək zamanın inkarı
- şühudi keçmiş zaman
- nəqli keçmiş zaman

---

Sual: Hansı cümlədə nəqli keçmiş zaman şəkilçisi "-mış" "ş" samiti olmadan işlənə bilər? (Çəki: 1)
- (selected) yemişsiniz
- yeməliyəmmiş
- yeyəcəkmişsən
- yeyirmişlər

- ◯ yeyərmişsən

## Bölmə: 09-01

| | |
|---|---|
| Ad | 09-01 |
| Suallardan | 7 |
| Maksimal faiz | 7 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: Miqdar zərfi hansı cümlədədir? (Çəki: 1)
- ◯ Bir qədər su iç.
- ◯ Yayda istirahətə gedərik.
- ◉ Gəlin bir az, uşaqlar, dincələk.
- ◯ Ağır otur, batman gəl.
- ◯ Yaşına-yaşına, çıxdı ocaq başına.

Sual: Hansı söz həm isim, həm də zaman zərfi ola bilmir? (Çəki: 1)
- ◯ gecə
- ◯ gündüz
- ◯ axşam
- ◯ səhər
- ◉ sabah

Sual: Cümlənin birində zərf işlənməmişdir: (Çəki: 1)
- ◉ Qoca ağacla yeriyirdi.
- ◯ O, mənə diqqətlə baxdı.
- ◯ Uşaq çantasını ehtiyatla qaldırdı.
- ◯ Küçədən maşın sürətlə keçdi.
- ◯ Ev yiyəsi qonağı təəccüblə süzdü.

Sual: Yer zərflərindən ibarət ardıcıllığı tamamlayın: Uzaq, bəri,içəri……. (Çəki: 1)
- ◯ Bayaq
- ◯ Sabah
- ◯ Açıq
- ◉ Sağa-sola
- ◯ Dünən

Sual: Həm zərf, həm də qoşma kimi işlənən sözləri seçin: (Çəki: 1)
- ◯ az, cox
- ◯ az-çox, bir az
- ◯ yaxşı, pis

◉ əvvəl, sonra
○ qədər, kimi

---

Sual: Hansı söz zərf deyil? (Çəki: 1)
○ üzbəüz
○ yanbayan
◉ növbənöv
○ ilbəil
○ günbəgün

---

Sual: Verilmiş yer zərflərinin ardıcıllığını tamamlayın: irəli, sağa-sola,yuxarı...... (Çəki: 1)
○ binada
○ dənizdəki
○ bayaq
◉ üzüaşağı
○ birə-beş

---

## Bölmə: 09-02

| | |
|---|---|
| Ad | 09-02 |
| Suallardan | 7 |
| Maksimal faiz | 7 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: Hansı zərf köməkçi nitq hissəsi ilə omonimdir? (Çəki: 1)
◉ əvvəl
○ çox
○ axşam
○ yayda
○ irəli

---

Sual: Mürəkkəb zərfləri göstərin: 1.gəlhagəl 2. qaçaqaç 3. basabas 4. ilbəil 5. yanbayan 6. taybatay (Çəki: 1)
◉ 4,5,6
○ 2,3,4
○ 1,2,3
○ 1,4,6
○ 3,4,5

---

Sual: Zərflərdən ibarət məntiqi ardıcıllığı tamamlayın: axşam, gecəyarısı, dünən,...... (Çəki: 1)
○ çəpəki

- ( ) atüstü
- ( ) güclə
- ( ) dərdli-dərdli
- (•) sabah

---

Sual: Həm zərf, həm də say kimi işlənən sözləri seçin: (Çəki: 1)

- (•) az, çox
- ( ) bir sıra, bir az
- ( ) yaxşı, pis
- ( ) əvvəl, sonra
- ( ) qədər, kimi

---

Sual: Səhv yazılmış zərflər hansıdır? 1. dosyana 2. adbaad 3. igitcəsinə 4. birəbeş 5. hərdənbir 6. bir-bir (Çəki: 1)

- ( ) 1,2,3,6
- ( ) 1,2,3,5
- (•) 1,3,4
- ( ) 2,4,5
- ( ) 2,5,6

---

Sual: Biri zərf deyil: (Çəki: 1)

- ( ) ruhən
- (•) gələn
- ( ) daxilən
- ( ) qəsdən
- ( ) qəlbən

---

Sual: Hansı sırada yalnız zərflər verilmişdir? (Çəki: 1)

- ( ) bilə-bilə, bir çox, yavaşça
- (•) diqqətlə, təkrarən, irəli
- ( ) qorxmadan, üzbəüz, geri
- ( ) məktəbdə, daxilən, həyəcanla
- ( ) səbirsizliklə, dostcasına, gözlənilmədən

---

## BÖLMƏ: 09-03

| | |
|---|---|
| Ad | 09-03 |
| Suallardan | 6 |
| Maksimal faiz | 6 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: Sözlərdən biri yalnız zərf kimi işlənir: (Çəki: 1)

- (x) bayaq
- ( ) bildir
- ( ) sonra
- ( ) gecə
- ( ) əvvəl

---

Sual: Hansı cümlədə zərf yoxdur? (Çəki: 1)

- ( ) İsa qapının ağzında dinməz-söyləməz dayanmışdır.
- (x) Dilimizdə bir sıra sözlər vardır ki, onları bir sətirdən digər sətrə keçirmək olmur.
- ( ) Küçələr bayramsayağı bəzənmişdi.
- ( ) Niyə sakitcə dayanıbsan?
- ( ) Bəziləri xoşbəxtlik haqqında çox danışır.

---

Sual: Düzəltmə zərflərdən birinin kökü təsirli feldir: (Çəki: 1)

- (x) açıqcasına
- ( ) açıqla
- ( ) qorxaqcasına
- ( ) unutmadan
- ( ) daxilən

---

Sual: Zərfləri seçin: 1. həmişəki 2. həmişəlik 3. həmişə 4. həminki 5. həmişəyaşar (Çəki: 1)

- ( ) 3,4
- ( ) 1,5
- ( ) 2,4
- (x) 2,3
- ( ) 2,5

---

Sual: Hansı bənddə yalnız zərflər verilmişdir? (Çəki: 1)

- ( ) irəlidən, çoxdan, gülə-gülə
- ( ) təsadüfən, sənsiz, deyəsən
- (x) bayramsayağı, dilucu, qəsdən
- ( ) qorxmadan, cəld, tezliklə
- ( ) ilbəil, parkda, maşında

---

Sual: Hansı nümunədə zaman zərfi işlənib? (Çəki: 1)

- ( ) Vətənə gəldim, imana gəldim.
- ( ) Mərdi qova-qova namərd edərlər.
- ( ) Əldən qalan əlli il qalar.
- ( ) Dünənki hadisə haqqında danışmırdılar.
- (x) Bunu sənə səhər demişəm.

---

## Bölmə: 10-01

| | |
|---|---|
| Ad | 10-01 |
| Suallardan | 15 |

| | |
|---|---|
| Maksimal faiz | 15 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: Verilənlərdən hansılar həm şəkilçi, həm bağlayıcı, həm də ədat ola bilər? 1) lə 2) ki 3) ya 4) da 5) gah 6) həm 7) hətta (Çəki: 1)

- 2, 3, 4
- 2, 4
- 4, 5, 6
- 1, 4, 6, 7
- 1, 6, 7

---

Sual: Qüvvətləndirici ədatın işləndiyi cümlə hansıdır? (Çəki: 1)

- Yəni sən bunu bilirsən?
- Təkcə sənə güvənirəm.
- Sən ki bunu bilirdin.
- Gəl bu işdən əl çəkək.
- Ayrılarmı könül candan?

---

Sual: “ Hər kəs öz nəfsini tanısa, Allahını da tanıyar” (İmam Əli) cümləsində hansı köməkçi nitq hissəsi işlənmişdir? (Çəki: 1)

- Bağlayıcı
- Ədat
- Qoşma
- Modal söz
- Nida

---

Sual: “ İstər, istərsə də “ bağlayıcısının növünü göstərin: (Çəki: 1)

- İştirак
- Bölüşdürmə
- İnkarlıq
- Aydınlaşdırma
- Qarşılaşdırma

---

Sual: Köməkçi nitq hissələrindən hansılar sözlərə bitişik də yazıla bilər? 1) Ədat 2) Nida 3) Modal sözlər 4) Qoşma 5) Bağlayıcı (Çəki: 1)

- 1, 3, 5
- 2, 3, 4
- 2, 4, 5
- 1, 4,5
- 3, 4, 5

---

Sual: Qoşma hansı cümlədədir? (Çəki: 1)

- Atamla qonşumuz kəndə getdilər.
- Səhər tezdən məktəbdə kimi axtarırsan?
- Bu sözün başqa mənaları da var.
- Anar həyətdə topla oynayır.
- Uşaq hər şeyə diqqətlə baxırdı.

---

Sual: Qoşma haqqındakı fikirlərdən hansı səhvdir? (Çəki: 1)

- Müstəqil suala cavab ola bilmir.
- Qoşulduğu sözlə birlikdə cümlə üzvü olur.
- Qoşulduğu sözlə birlikdə müxtəlif mənaları ifadə edir.
- İsmin bütün hallarında olan sözlərə qoşulur.
- Təkhecalı qoşmalar sözlərə bitişik, ikihecalılar isə ayrı yazılır.

---

Sual: “ Barı evə məktub yaz “ cümləsində ədatın hansı növü işlənmişdir? (Çəki: 1)

- dəqiqləşdirici
- məhdudlaşdırıcı
- arzu
- əmr
- qüvvətləndirici

---

Sual: Modal sözlərdən biri ehtimal, güman və şübhə bildirir: (Çəki: 1)

- deməli
- görünür
- doğrudan da
- əlbəttə
- məncə

---

Sual: Nümunələrdən birində ədat və qoşma işlənmişdir: (Çəki: 1)

- Todan kəndi də Goranboydadır.
- Nənəsi Nərmin üçün qoğal bişirmişdir.
- Gör sənin üçün nə qədər gül dərmişəm.
- Düzü, o zaman Dolan təpələri əsl döyüş meydanına çevrilmişdi.
- Uzun illərdən sonra axtardığımı tapdım.

---

Sual: “ Mən dərsdən sonra evədək piyada getdim “ cümləsindəki qoşmalar hansı mənaları bildirir? (Çəki: 1)

- səbəb-məqsəd, bənzətmə
- zaman, bənzətmə
- fərqlənmə, birgəlik
- zaman, məsafə
- müqayisə, istiqamət

---

Sual: Bağlayıcılardan birinin yazılışı səhvdir: (Çəki: 1)

- indi ki

- (selected) hər gah
- belə ki
- halbuki
- nəinki

---

Sual: Şeir parçasında köməkçi nitq hissələrindən hansılar işlənməmişdir? Bəlkə, onun da oğlu qanlı döyüşlərdədir, Kim bilir, o, bəlkə də, mənimlə bir dərddədir. (Çəki: 1)

- (selected) ədat, nida
- modal söz, bağlayıcı
- bağlayıcı, qoşma
- qoşma, nida
- ədat, qoşma

---

Sual: Məntiqi ardıcıllığı tamamlayın: Qabaq, sonra, bəri,.... (Çəki: 1)

- başqa
- özgə
- tərəf
- ötrü
- (selected) əvvəl

---

Sual: ... danışanın ifadə etdiyi fikrə münasibət bildirir: (Çəki: 1)

- ədat
- nida
- qoşma
- bağlayıcı
- (selected) modal söz

---

## Bölmə: 10-02

| | |
|---|---|
| Ad | 10-02 |
| Suallardan | 15 |
| Maksimal faiz | 15 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: Söz-cümlə nə ilə ifadə olunmuşdur? — Bu barədə fikrin nədir, o, doğrudanmı, bu işi bacarar? — Deyilənə görə, bəli. (Çəki: 1)

- (selected) modal söz və təsdiq ədatı ilə
- nida və təsdiq ədatı ilə
- modal sözlə
- təsdiq ədatı ilə
- nida və modal sözlə

---

Sual: “ Afərin “ nidası hansı cümlədə tərif mənasında işlənməmişdir? (Çəki: 1)
- Afərin! Yaxşı cavab verdin!
- Afərin! Adam da yoldaşını aldadar?!
- Afərin! Halal olsun sənə ananın südü!
- Afərin! Ozünü itirmədin.
- Afərin, oğul! Biz səninlə fəxr edirik.

---

Sual: “ 1991-ci ildən sonra Azərbaycanda çox yeniliklər baş vermişdir “ cümləsindəki qoşmanı onun sinonimi kimi hansı sözlə əvəz etmək olar? (Çəki: 1)
- əvvəl
- qabaq
- bəri
- başqa
- qeyri

---

Sual: Aşağıdakılardan biri modal söz kimi işlənə bilir: (Çəki: 1)
- gör
- görün
- gəlin
- görünür
- gəlsənə

---

Sual: Durğu işarəsi qoyulmazsa, hansı cümlədəki “kimi” sözü həm qoşma, həm də sual əvəzliyi kimi başa düşülə bilər? (Çəki: 1)
- Əli kimi axtarırdı
- Dostların kimi danışma
- Kimi danışır kimi susur
- Sən kimi soruşursan
- Kimi seçəcəklər

---

Sual: Köməkçi nitq hissələrindən şəkilçi formasında da olanlar: (Çəki: 1)
- qoşma, ədat, nida
- qoşma, bağlayıcı, ədat
- bağlayıcı, modal sözlər, qoşma
- modal sözlər, nida, qoşma
- nida

---

Sual: Cümlənin ortasında xitabla birgə işlənən hansı nidadan sonra bəzən vergül qoyulmur? (Çəki: 1)
- ay
- əhsən
- bəh-bəh
- oxqay
- of

---

Sual: Köməkçi nitq hissələrindən birinin orfoqrafiyasında defis işarəsindən istifadə edilir. Bu aşağıdakılardan hansıdır? (Çəki: 1)

- qoşma
- nida
- bağlayıcı
- modal sözlər
- ədat

---

Sual: Ancaq qrammatik mənası olan sözü müəyyənləşdirin: (Çəki: 1)

- doğru
- kimi
- elə
- lap
- tək

---

Sual: Köməkçi nitq hissələrindən dilçiliyin hansı bölməsində bəhs edilir? (Çəki: 1)

- leksikologiya
- sintaksis
- üslubiyyat
- morfologiya
- fonetika

---

Sual: –mı4 ədatı hansı fellərə qoşulmur? (Çəki: 1)

- vacib şəklində olan fellərə
- məsdərlərə
- feli bağlamalara
- 2-ci şəxsdə olan əmr şəklinə
- lazım şəklində olan fellərə

---

Sual: Bu bağlayıcılardan hansı nə tabeli, nə də tabesiz mürəkkəb cümlənin tərkib hissələri arasında işlənmir? (Çəki: 1)

- amma
- həm
- çünki
- ilə
- hərçənd

---

Sual: Köməkçi nitq hissələrinin sintaktik xüsusiyyətinə aid deyil: (Çəki: 1)

- Həmcins üzvlər arasında bağlılıq yaradır.
- Cümlə daxilində fikrə münasibət bildirir.
- Müəyyən qrammatik məna bildirir.
- Cümlənin təsir gücünü artırır.
- Müstəqil cümlə üzvü olur.

---

Sual: “ Sən sabah Ərdəbilə gedəcəksən “ - cümləsinə aşağıdakı sözlərdən hansı əlavə

olunsa, cümlə məqsəd və intonasiyasına görə dəyişər? (Çəki: 1)

- avtobusla
- tezdən
- həqiqətən
- də
- (•) məgər

---

Sual: Qoşmadır, şəkilçi formasında deyil, ancaq sözlərə bitişik yazılır: (Çəki: 1)

- -dək
- -lə
- (•) tək
- -can 2
- ilə

---

## BÖLMƏ: 10-03

| | |
|---|---|
| Ad | 10-03 |
| Suallardan | 10 |
| Maksimal faiz | 10 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: "Elə" sözü nə zaman suala cavab vermir? (Çəki: 1)

- zərfi əvəz etdikdə
- fel kimi işləndikdə
- sifəti əvəz etdikdə
- (•) ədat kimi işləndikdə
- işarə əvəzliyi olduqda

---

Sual: “ Ya elm öyrən, ya elm öyrədənləri dinlə, ya da elm əhlini sev “ cümləsində tabesizlik bağlayıcısının növünü göstərin : (Çəki: 1)

- birləşdirmə
- qarşılaşdırma
- (•) bölüşdürmə
- aydınlaşdırma
- iştirak

---

Sual: “ Ay aman, deyəsən, sən də onlara tərəf çıxırsan, sən nə vaxt məni anlayacaqsan? “cümləsində köməkçi nitq hissələrinin ardıcıllığını göstərin: (Çəki: 1)

- nida, bağlayıcı, qoşma, modal söz
- (•) nida, modal söz, bağlayıcı, qoşma
- nida, modal söz, ədat, qoşma
- nida, bağlayıcı, bağlayıcı, modal söz
- nida, modal söz, ədat, ədat

Sual: Hansı cümlədə ədat işlənməmişdir? (Çəki: 1)
- Gör bir neylədin!
- Gəl bu daşı ətəyindən tök.
- Gedək, gözlərinlə gör.
- Bax belə əzişdirərlər adamı.
- Bu işi təkcə sən bacararsan.

---

Sual: Bağlayıcı işlənmiş cümləni tapın: (Çəki: 1)
- Bizimki bura qədər imiş.
- Uşaqlar üşümür ki?
- Bu ki onun uşaqlıq şəklidir.
- Bazardakı bahalıqdan şikayət edirdi.
- Bir vaxt deyərdim ki, ölüm uzaqdır.

---

Sual: Hansı qoşmanın tələffüzü yazılışından fərqlidir? (Çəki: 1)
- kimi
- ötrü
- tərəf
- aid
- başqa

---

Sual: Modal sözlərə aid səhv fikri müəyyənləşdirin: (Çəki: 1)
- Cümlənin ancaq əvvəlində və sonunda işlənə bilər.
- Cümlə üzvlərindən vergüllə ayrılır.
- Bəziləri əsas nitq hissələri ilə ortaq sözlərdir .
- Quruluşca iki növü var.
- Danışanın ifadə etdiyi fikrə münasibət bildirən sözlərə deyilir.

---

Sual: Məntiqi uyğunluğu gözləməklə bağlayıcılardan ibarət cərgəni tamamlayın: ona görə ki, ondan ötrü ki, onun üçün ki,... (Çəki: 1)
- hərçənd ki
- indi ki
- bir halda ki
- çünki
- madam ki

---

Sual: Qoşma hansı cümlədədir? (Çəki: 1)
- Tahirlə Sabit bizim köhnə qonşularımızdır.
- Ondan ötrü çox darıxan anamın gözləri daim yol çəkirdi.
- Uşaq evdə tək qalmışdı.
- Uşaqlardan kimisi dərs oxuyur, kimisi də həyətdə gəzişirdi.
- Sonra mən onu evlərinə ötürdüm.

---

Sual: "Qar yağır" cümləsinə hansı nida artırılsa, qorxu emosiyası ifadə olunar? (Çəki: 1)
- (•) vay-vay
- ( ) ay can-ay can
- ( ) bıy
- ( ) ey
- ( ) hey

---

## Bölmə: 11-01

| | |
|---|---|
| Ad | 11-01 |
| Suallardan | 5 |
| Maksimal faiz | 5 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: Biri söz birləşməsidir: (Çəki: 1)
- ( ) vətən üçün
- (•) əla növ
- ( ) dünəndən bəri
- ( ) heç kəs
- ( ) lap yaxşı

---

Sual: Tabe tərəfi feli sifət olan I növ təyini söz birləşmələrindən ibarət cərgəni göstərin: (Çəki: 1)
- ( ) dəmir qapı, qızıl saat, daş hasar
- ( ) sərin su, iyirminci əsr, belə əhvalat
- (•) oxuduğum kitab, gecikdirilmiş cavab, görüləcək iş
- ( ) çalışqan uşaq, küsəyən oğlan, zarafatcıl adam
- ( ) yemiş alveri, qamış sahəsi, yarış meydanı

---

Sual: Asılı tərəfi düzəltmə sifətlə ifadə olunmuş I növ təyini söz birləşməsi hansıdır? (Çəki: 1)
- ( ) uzaq ölkə
- ( ) yumşaq parça
- ( ) qoçaq uşaq
- ( ) oyaq keşikçi
- (•) qaçaq əsgər

---

Sual: Asılı tərəfi isimlə ifadə olunmuş I növ təyini söz birləşməsini göstərin: (Çəki: 1)
- ( ) həmin adam
- ( ) şirin meyvə
- ( ) onuncu sinif
- (•) taxta qapı

- oyanmış torpaq

---

Sual: Həm II, həm də III növ təyini söz birləşməsinə aid olan xüsusiyyətlər: 1. İkinci tərəfi mənsubiyyət şəkilçili söz olur. 2. Tərəfləri, əsasən, isimlə ifadə olunur. 3. İkinci tərəfi hər üç şəxsin mənsubiyyət şəkilçilərini qəbul edir. 4. Tərəfləri arasına başqa söz artırmaq olmur. 5. Hər iki tərəfi tək-tək, bəzən isə eyni zamanda cəmlənə bilir. 6. Tərəflər bütövlükdə cümlənin bir üzvü olur. (Çəki: 1)

- 1,3,5
- 2,5,6
- 1,2,6
- 1,3,6
- 2,4,6

---

## Bölmə: 11-02

| | |
|---|---|
| Ad | 11-02 |
| Suallardan | 4 |
| Maksimal faiz | 4 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: III növ təyini söz birləşməsi olan cümlə: (Çəki: 1)

- Qatar Əcəmi stansiyasına çatdı.
- Qardaşın kitab hədiyyə verdi.
- Bu həzin nəğmə sənin üçün ifa olunur.
- Göyçə mahalıdır mahalım mənim.
- Bahar fəsli, yaz ayları gələndə, Süsənli, sünbüllü, lalalı dağlar.

---

Sual: “Məktəblilər dostlarına məktub göndərdilər” cümləsində hansı sözlər arasında uzlaşma əlaqəsi var? (Çəki: 1)

- məktəblilər məktub
- məktəblilər göndərdilər
- dostlarına məktub
- məktub göndərdilər
- dostlarına göndərdilər

---

Sual: Hansı cümlədə feli sifət tərkibi işlənmişdir? (Çəki: 1)

- Gələn ərbabın adamları idi.
- Günçıxan tərəfdə qara buludlar günün qabağını kəsmişdir.
- Bir neçə gündən sonra hamı məktəbin həyətinə toplaşdı.
- Dərin xəyallara qərq olan Səbinə sanki onu heç eşitmirdi.
- Ötənləri yada salmağa dəyməz.

---

Sual: “Hündür bina” söz birləşməsinin tərəfləri arasında hansı əlaqə var? (Çəki: 1)

- idarə
- idarə, yanaşma
- uzlaşma
- (•) yanaşma
- tabesizlik

---

## Bölmə: 11-03

| | |
|---|---|
| Ad | 11-03 |
| Suallardan | 5 |
| Maksimal faiz | 5 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: Verilmiş xüsusiyyətlərdən hansı II növ təyini söz birləşmələrinə aid deyildir? (Çəki: 1)

- Tərəfləri eyni zamanda cəmlənə bilmir.
- Tərəfləri arasına heç bir söz daxil ola bilmir.
- Qeyri-müəyyənlik ifadə edir.
- (•) Tərəfləri şəxs əvəzlikləri ilə də ifadə oluna bilir.
- Tərəfləri arasında uzlaşma əlaqəsi özünü göstərir.

---

Sual: “Ananın öyüdü” söz birləşməsində tərəflər arasında hansı əlaqə vardır? (Çəki: 1)

- uzlaşma
- (•) uzlaşma və idarə
- idarə, yanaşma
- idarə
- uzlaşma, yanaşma

---

Sual: “Mən bura gələndə uşaqları da, onu da aparmışdılar”- cümləsində cümlə üzvləri arasında hansı sintaktik əlaqələr işlənmişdir? (Çəki: 1)

- tabesizlik, uzlaşma, yanaşma, idarə
- tabesizlik, uzlaşma, idarə
- (•) tabesizlik, yanaşma, idarə
- uzlaşma, idarə
- uzlaşma, yanaşma, idarə

---

Sual: Verilmiş birləşmələrdən hansı təyini söz birləşməsidir? (Çəki: 1)

- (•) demokratik ölkə
- dərs oxumaq
- sürətlə qaçan
- onun kimi
- evə qayıdanda

Sual: "Qısa məlumat" birləşməsində tərəflər arasındakı sintaktik əlaqə: (Çəki: 1)

- uzlaşma
- uzlaşma, idarə
- yanaşma
- uzlaşma, yanaşma
- idarə

## Bölmə: 12-01

| | |
|---|---|
| Ad | 12-01 |
| Suallardan | 33 |
| Maksimal faiz | 33 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: "Mənim tələbə yoldaşım fərasətlidir" cümləsinin xəbəri nə ilə ifadə olunmuşdur? (Çəki: 1)

- mürəkkəb adla
- sifətlə
- isimlə
- söz birləşməsi ilə
- zərflə

Sual: Xəbəri feli sifətlə ifadə olunmuş cümləni göstərin: (Çəki: 1)

- Tələbə yoldaşım Mahir yaxşı oxuyandır.
- Bu sözlər ona deyilməməliydi.
- Azacıq aşım, ağrımaz başım.
- Bişmişlər stolun üstünə düzülmüşdü.
- O, mütləq bu xəstəlikdən sağalmalıdır.

Sual: Cümlələrdən birində mübtəda isimləşmiş feli sifət tərkibi ilə ifadə olunmuşdur: (Çəki: 1)

- Xalq işi uğrunda vuruşanlar daim xatirimizdə yaşayacaqlar.
- O bizə gələndə evdə toy-bayram olur.
- Tələbələr seminara hazırlaşırlar.
- Şuşadakı bulaqların suyuna heç nə çatmaz.
- Mitinqə toplaşan fəhlələri dövrəyə aldılar.

Sual: Xəbəri frazeoloji fellə ifadə olunmuş cümləni göstərin: (Çəki: 1)

- O, qatarda tanımadığı bir adamla görüşdü.
- Yada düşdü nişanlısı, nazlı sular sonası da...
- Əlindəki fincan yerə düşüb sındı.

- Ona biz vaxtında çox kömək etmişik.
- Oğlunun yazdığı məktubu oxuya bilmədi.

---

Sual: Cümlələrdən birində xəbər əvəzliklə ifadə olunmuşdur: (Çəki: 1)
- Kaş tez - tez görəydim səni.
- Sənsiz qəhr edərdi bu cahan məni.
- Darvazanın ağzında səssiz - səmirsiz dayanan kimdir?
- İstedadlı şagirdlərim bu oğlanlardır.
- Vətənimizin hər qarış torpağı gözəldir.

---

Sual: Hansı nümunədə ismi xəbər yoxdur? (Çəki: 1)
- Ayazlı-şaxtalı bir qış axşamı idi.
- Şəhidlər xiyabanı. Dilə gəlir məzarlar...
- Söz vardır, kəsər savaşı.
- Kür qırağının əcəb seyrangahı var.
- Səidənin bacısı tələbədir.

---

Sual: Hansı cümlənin xəbəri sifətdən düzəlmiş fellə ifadə olunmuşdur? (Çəki: 1)
- O, birdən dilləndi.
- Siz bu gün necə də gözəlsiniz.
- Bu meyvə yeməlidir.
- O, günü - gündən yaxşılaşırdı
- Dostlarımın sayı lap çoxalmışdı.

---

Sual: İsmi xəbərli cümlə hansıdır? (Çəki: 1)
- Fuad bütün gecəni oyaq qalmışdı.
- Bu idmançılar yarışda birincilik qazananlardır.
- Həkimlərin səyi nəticəsində xəstəni həyata qaytarmaq mümkün oldu.
- Qorxudan dizləri əsirdi.
- Dost dar gündə tanınar.

---

Sual: "Dostlarına xəyanət etmək istəyən xəyanətin qurbanı olacaq" cümləsinin mübtədası nə ilə ifadə olunmuşdur ? (Çəki: 1)
- məsdər tərkibi ilə
- isimləşmiş feli sifət tərkibi ilə
- II növ təyini söz birləşməsi ilə
- III növ təyini söz birləşməsi ilə
- təyini əvəzliklə

---

Sual: Hansı cümlənin xəbəri mürəkkəbdir? (Çəki: 1)
- Seçkilər ərəfəsində o, seçicilərlə görüşməli imiş.
- Bəzi sözləri baxışlardan da oxumaq mümkündür.
- Son vaxtlar Fazil çox işlə məşğul olurdu.
- Amilin atası təcrübəli inşaat mühəndisidir.

- ○ Bizim müsahibimiz cəsarətlidir.

---

Sual: Mübtədası III növ təyini söz birləşməsi ilə ifadə olunmuş ismi xəbərli cümləni göstərin: (Çəki: 1)
- ○ Şagirdlərin biri sözə başladı.
- ◉ Yer üzünün əşrəfi insandır.
- ○ Göy göl zəlzələ nəticəsində meydana gəlmişdir.
- ○ Sənin niyyətin məni də sevindirir.
- ○ Bunların hamısı axşama qədər qonşulara paylanılmalı imiş.

---

Sual: "Gecikənlər həmin sinfin uşaqları deyil" cümləsinin sintaktik təhlili ilə bağlı səhvi göstərin: (Çəki: 1)
- ○ Nəqli cümlədir.
- ○ Xəbər III növ təyini söz birləşməsi ilə ifadə olunub.
- ○ Mübtəda isimləşmiş feli sifətiə ifadə olunmuşdur.
- ○ İsmi xəbərli müəyyən şəxsli cümlədir.
- ◉ Baş üzvlərin hər ikisi quruluşuna görə sadədir.

---

Sual: Hansı cümlənin xəbəri sifətdən düzələn fellə ifadə olunub? (Çəki: 1)
- ◉ Mənim babam çox qocalıbdır.
- ○ Deyilənə görə, xəstənin vəziyyəti yaxşıdır.
- ○ Məclisə gətirilmiş qəzetlər dünənkidir.
- ○ Məncə, məsələnin həlli düzgündür.
- ○ Məktub sahibinə çatdırılmışdır.

---

Sual: Yazıq o şəxsə ki, sevmir nəsihət, Nəsihət sevənlər qazanar sərvət! Nümunədəki feli birləşmənin növünü və sintaktik funksiyasını müəyyənləşdirin: (Çəki: 1)
- ○ feli sifət tərkibi; təyin
- ○ məsdər tərkibi; mübtəda
- ○ feli bağiama tərkibi; zərflik
- ◉ feli sifət tərkibi; mübtəda
- ○ məsdər tərkibi; tamamlıq

---

Sual: "Əzizim, yaxşı atanın övladı pis olmaz". Cümlənin məqsəd və intonasiyaya görə növünü müəyyənləşdirin: (Çəki: 1)
- ○ əmr
- ○ sual
- ◉ nəqli
- ○ nida
- ○ şəxssiz

---

Sual: İsmi xəbər ola bilmir: (Çəki: 1)
- ○ III növ təyini söz birləşməsi
- ○ feli sifət
- ◉ təsriflənən fellər

- zərf
- mürəkkəb ad

---

Sual: "Bəs bunu kimdən öyrənmisən?" sual cümləsi necə yaranmışdır? (Tam cavabı müəyyən edin.) (Çəki: 1)

- Sual ədatının köməyi ilə
- Sual əvəzliyinin köməyi ilə
- Yalnız intonasiya ilə
- Sual ədatı, sual əvəzliyi və intonasiya ilə
- Sual ədatı və intonasiya ilə

---

Sual: Hansı cümlənin mübtədası quruluşca sadədir? (Çəki: 1)

- Vətəni sevmək hər bir gəncin borcudur.
- Hüseyn Cavid mənzum dramaturgiyamızın banisidir.
- Günəbaxan faydalı bitkidir.
- Vətən uğrunda şəhid olanlar unudulmamalıdır.
- Xudaya, insanın halı yamandır, Nələr çəkdiyimiz sənə əyandır. (S.Vurğun)

---

Sual: Xəbər vəzifəsində işlənə bilən sözlərdən ibarət bəndi göstərin: 1. İsmin müəyyən yiyəlik halında işlənən söz 2. “Öz”, “hər” tipli təyini, “kim isə”, "nə isə" tipli qeyri - müəyyən əvəzliklər 3. İsmin təsirlik halında işlənən söz 4. "onlarla", "yüzlərlə" tipli qeyri - müəyyən miqdar sayları 5. Feli bağlama və feli bağlama tərkibləri (Çəki: 1)

- 2,3,5
- I,4
- 4,5
- 2,3
- 1,3,4

---

Sual: Hansı cümlədə ismi xəbərə aid olan zərflik işlənmişdir? (Çəki: 1)

- Çalışqanların hamısı əlaçı oldu.
- Maya bu sözlərdən almaz kimi parıldayan cümlələr düzəldirdi.
- Oxumaq üçün Türkiyəyə gedənlər xoşbəxt və sevincli idi.
- Məndən işıq alır min kənd, min şəhər.
- Sənubər artıq dərəcədə qəmgin idi.

---

Sual: “İnsanın ən birinci ustadı və müəllimi onun anasıdır". Cümlənin məqsəd və intonasiyaya görə növünü müəyyən edin: (Çəki: 1)

- sual cümləsi
- əmr cümləsi
- nəqli cümlə
- nida cümləsi
- söz-cümlə

---

Sual: Hansı cümlədə mübtəda feli sifətlə ifadə olunmuşdur? (Çəki: 1)

- Oxumaq, öyrənmək hamımızın işidir.
- Sən dedin ki, müqəddəsdir azad könül, azad vətən. (S.Vurğun)
- Yazın səhər vaxtı güllük, çiçəklik, Ürək sərinlədən yellər bizdədir.(S.Vurğun)
- Danışmayan yalnız ana idi,Torpaq idi. (G.Hüseynoğlu)
- Universiteti bitirənlərlə görüş keçirildi.

---

Sual: "Hərə öz bacardığından yapışar" cümləsində mübtədanın ifadə vasitəsi nədir? (Çəki: 1)

- qeyri - müəyyən əvəzlik
- təyini əvəzlik
- işarə əvəzliyi
- sual əvəzliyi
- şəxs əvəzliyi

---

Sual: Mübtədası və xəbəri sifətlə ifadə olunmuş cümləni seçin: (Çəki: 1)

- Yaralının vəziyyəti çox ağır idi.
- Qoca çox qıvraq və cəld idi.
- Dünənki ılıq hava bu gün birdən soyudu.
- Balaca balıq üçün dənizdə üzmək çətin idi.
- Gecələr qısalır, gündüzlər uzanır.

---

Sual: "Çörəkxanadakılar vurhavur işləyir, su tökür, xəmir yoğurur, kürəyə od qoyurdular" cümləsinin mübtədası nə ilə ifadə olunmuşdur? (Çəki: 1)

- isimlə
- isimləşmiş sifətlə
- zərflə
- mürəkkəb adla
- təyini söz birləşməsi ilə

---

Sual: “O, təəccüblə mənə baxdı” cümləsindəki zərfliyin təhlili ilə bağlı səhv fıkir hansıdır? (Çəki: 1)

- Tərzi-hərəkət zərfliyidir.
- Quruluşuna görə düzəltmə zərflə ifadə olunmuşdur.
- “Necə?” sualına cavab verir.
- “Təəccüb” ismi və "ilə" qoşmasının qısa forması ilə ifadə olunmuşdur.
- Yanaşma əlaqəsi ilə feli xəbərə tabedir.

---

Sual: Mürəkkəb mübtədalı cümləni seçin: (Çəki: 1)

- Atamla qardaşım qonağı qarşılamağa getdilər.
- Qarabağ əzəli və əbədi Azərbaycan torpağıdır.
- Yaxşılıq əxlaqi keyfıyyətdir.
- Şirin bir xatirə tək qalacaqdır dünyada Sevərək yaşayanlar, sevilərək ölənlər.
- Nazlanmaq qızların adətidir.

---

Sual: "Hər kəs yerindən qışqırmağa başladı" cümləsində mübtədanın ifadə vasitəsi

nədir? (Çəki: 1)
- (selected) qeyri - müəyyən əvəzlik
- təyini əvəzlik
- işarə əvəzliyi
- sual əvəzliyi
- şəxs əvəzliyi

---

Sual: "Kitabları aparan Muradın özü idi" cümləsində mübtəda nə ilə ifadə olunub? (Çəki: 1)
- (selected) feli sifət tərkibi
- feli sifət
- isim
- sifət
- III növ təyini söz birləşməsi

---

Sual: Hansı cümlədə tamamlıq ikinci növ təyini söz birləşməsi ilə ifadə olunmuşdur? (Çəki: 1)
- Kənd yolu təzəcə abadlaşdırılmışdı.
- İnsan arzusu bitib-tükənmək bilmir.
- (selected) Kursumuza gələn tələbələr hər gün test sualları yazırlar.
- Qonşu bağdan musiqi səsi gəlir, gülüş səsləri ucalırdı.
- Yarməmmədin səsi quyunun dibindən gəldi.

---

Sual: “Uzaqdan gələn Kamildir” cümləsində xəbər nə ilə ifadə olunmuşdur? (Çəki: 1)
- köməkçi sözlə
- feli birləşmə ilə
- (selected) isimlə
- sifətlə
- feli bağlama tərkibi ilə

---

Sual: Hansı cümlədə mübtəda sifətlə ifadə olunmuşdur? (Çəki: 1)
- "Qoca və dəniz" romanı E.Heminquey yaradıcılığının zirvəsidir.
- (selected) İclasdakılar bu qərara çox təəccübləndilər.
- Soyuqdan hamı titrəyirdi.
- Havaya atılan fişənglər rəngbərəng işıq saçırdı.
- İnsan müqəddəs bir varlıqdır.

---

Sual: "Onun gözlərindəki ifadə məni təəccübləndirdi" cümləsinin təhlili ilə bağlı fikirlərdən biri səhvdir: (Çəki: 1)
- Məni -tamamlıqdır.
- Cümlədə bir təyin var.
- Mübtəda isimlə ifadə olunub.
- (selected) Cümlənin zərfliyi mürəkkəbdir.
- Xəbər fellə ifadə olunmuşdur.

---

## Bölmə: 12-02

| | |
|---|---|
| Ad | 12-02 |
| Suallardan | 30 |
| Maksimal faiz | 30 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: Mürəkkəb zərf hansı cümlədə işlənmişdir ? (Çəki: 1)
- ○ Axşam hər şey yoluna düşər.
- ○ Xəstə olanda səni ziyarət etmişdilər.
- ○ Gəldim görüşünə güllər güləndə.
- ○ Daim ağlar qəlbim viranə.
- ◉ Gecənin yarısı küçədə göz-gözü seçmirdi.

---

Sual: "Pəri öz sualının cavabını eşitməmək üçün qulaqlarını tutdu" cümləsində zərfliyin mənaca hansı növündən istifadə edilib? (Çəki: 1)
- ○ zaman
- ○ yer
- ○ səbəb
- ◉ məqsəd
- ○ tərzi-hərəkət

---

Sual: Mürəkkəb tamamlıqlı cümlə hansıdır? (Çəki: 1)
- ○ Onda gözəl qabiliyyət var.
- ○ O, təkbaşına idman etməyi xoşlayır.
- ◉ Məmməd heç vaxt iradəsinə zidd getməyi xoşlamırdı.
- ○ İndi o da işinə ciddi yanaşandır.
- ○ Əsas sənədləri yoxlamaq Murada tapşırıldı.

---

Sual: Cümlələrin birində söz birləşməsi ilə ifadə olunmuş zərflik vardır: (Çəki: 1)
- ○ Göylərin üzü birdən tutuldu.
- ○ Bu dağları gəzməyə gəlmişəm.
- ◉ Küçənin ortasında əzəmətli bir heykəl ucalırdı.
- ○ Şəhərdə böyük bir çaxnaşma vardı.
- ○ Dostum bu əhvalatı gülərək danışırdı.

---

Sual: Hansı cümlədə vasitəsiz tamamlıq sadə isimlə ifadə olunmuşdur ? (Çəki: 1)
- ○ Qoca əl ağacıyla yeriyirdi.
- ◉ Ovçu özünə yeni tüfəng aldı.
- ○ Vəli onu hərarətlə salamladı.
- ○ Biz onbirinciləri sevinclə qarşıladıq.
- ○ Vətənim verdi mənə nanü-nəmək.

---

Sual: Cümlədə isimlə ifadə olunmuş üzvlərin əlamətini bildirir: (Çəki: 1)

- tamamlıq
- mübtəda
- təyin
- zərflik
- xəbər

---

Sual: Hansı cümlədə təyin II növ təyini söz birləşməsi ilə ifadə olunmuşdur ? (Çəki: 1)

- Firuzə rəngli kuzələri doldurdu.
- Al-qırmızı gülləri ağ güldana yığan qızın təbəssümü yadımdan çıxmayıb.
- Sakit-sakit dalğalanan dəniz birdən təlatümə gəldi.
- Mühəndis Sultanov dəri paltosunu geyindi.
- Polis rəisi Kərimov prokurora zəng vurdu.

---

Sual: Hansı cümlədə məsdər tərkibi səbəb zərfliyi vəzifəsindədir? (Çəki: 1)

- Şəhəri düşmən hücumundan qorumaq üçün böyük texnikalar gətirilirdi.
- Rəhman atası ilə danışmağı özünə sığışdırmırdı.
- Boş-boş danışmaqdan bir şey çıxmaz.
- Qardaşı ilə görüşmək onu çox sevindirdi.
- Torpaqla məşğul olmaqdan əlləri cadar-cadar olmuşdu.

---

Sual: Cümlələrdən birində həm vasitəsiz, həm də vasitəli tamamlıq var: (Çəki: 1)

- Səndə gözəl qabiliyyət var.
- Onu əvvəlcə özündən soruş.
- Məcid dayı məsələnin nə yerdə olduğunu başa düşdü.
- Mən sənin haqqında çox düşündüm.
- Zaur bu bitkilərin çoxunu tanımırdı.

---

Sual: Verilmiş sözlərdən hansı müstəqil cümlə üzvü ola bilir?. (Çəki: 1)

- idi
- gərək
- deyil
- imiş
- üçün

---

Sual: “İlan ilan yeməyincə əjdaha olmaz» cümləsinin sintaktik təhlili ilə bağlı fikirlərdən hansı səhvdir? (Çəki: 1)

- 3 cümlə üzvü var.
- Zərflik quruluşca mürəkkəbdir
- Cümlənin xəbəri «əjdaha olmaz»dır.
- “İlan” mübtədadır.
- Cümlədə 4 cümlə üzvü var.

---

Sual: Mübtədası və xəbəri sayla ifadə olunmuş cümlə hansıdır? (Çəki: 1)

- Dünənki ılıq hava bu gün yoxdur.
- Gecələr uzun, gündüzlər isə qısa idi.
- Birincilər həmişə birincidir.
- Qocalar yaşlarına baxmayaraq, qıvraq və cəld idilər.
- Qaçanlar birdən dayandılar.

---

Sual: «O, hacı, bu, hacı, kim olacaq boyaqçı?» cümləsinin sintaktik təhlili ilə bağlı fikirlərdən biri səhvdir: (Çəki: 1)

- Feli xəbər mürəkkəbdir.
- Mürəkkəb cümləni təşkil edən bütün cümlələr müxtəsərdir.
- Cümlədə iki ismi, bir feli xəbər var.
- Cümlədəki bütün mübtədalar əvəzliklə ifadə olunmuşdur.
- Mürəkkəb cümlədir.

---

Sual: Cümlələrin hansında baş üzvlərin hər ikisi söz birləşmələri ilə ifadə olunmuşdur? (Çəki: 1)

- Qardaşım, Təbrizdən gələn səslər Bakının səsidir, Bakının səsi.
- Bakıya yağan qar ara vermədən davam edirdi.
- Baharı qarşılamaq onun ən böyük arzusu idi.
- Kitabları oxumaq lazımdır.
- Səsini dinləməkdən doymurdum.

---

Sual: İsmi xəbərli cümləni göstərin: (Çəki: 1)

- O, mənə diqqətlə qulaq asırdı.
- Gələn Səidə idi.
- Həyətdə gözəl güllər əkdim.
- Mətni diqqətlə köçürdü.
- Güclü külək ağaclari yerə yıxmışdı.

---

Sual: “Cümlədəki “yazır “ felin indiki zamanındadır”cümləsının təhlili ilə bağlı fıkirlərdən biri səhvdir: (Çəki: 1)

- "Cümlədəki" sözü təyindir.
- Cümlənin mubtədası felin indiki zamanı ilə ifadə olunmuşdur.
- Xəbər-sadədir.
- Cümlədə zərflik yoxdur.
- Cümlədə bir söz birləşməsi var.

---

Sual: "Mən sənin gələcəyinə inanıram” cümləsində mübtəda hansı nitq hissəsi ilə ifadə olunmuşdur? (Çəki: 1)

- isim
- sifət
- əvəzlik
- say
- fel

---

Sual: Hansı cümlədə mürəkkəb mübtəda verilmişdir? (Çəki: 1)

- Ay qızım, sənin dərs oxumağını niyə görmürəm?
- Dünyanın dərdini çiynində daşıyan, sən ki mənim dərdimi bilirsən.
- Mənim fikrim səni narahat etməsin.
- Ey zalım, nə qədər zülm edəcəksən bizə sən?
- Ana Vətən, ey odlar diyarı, sənə canım qurban.

---

Sual: Aşağıdakı cümlələrdən hansında ayrılıqda kim? sualına cavab verən söz vasitəsiz tamamlıq kimi işlənərək nə? sualına cavab vermişdir? (Çəki: 1)

- Məhəllənin uşaqları Toğrulun yaxşı maşın sürməyinə tamaşa edirdilər.
- Bağban bağçadakı güllərə öz övladı kimi qulluq edirdi.
- Bakı Dövlət Universiteti tələbə qəbul edir.
- Mən bazardan oğluma uşaq oyuncağı aldım.
- Balaca quzu su içir.

---

Sual: Feli xəbərin sualları hansı sıradadır? (Çəki: 1)

- Necədir?, haradadır?
- Kim?, nə?
- Nə etdi?, nə edir?
- Niyə?, nə səbəbə?
- Necə?, hansı?

---

Sual: Cümlələrdən hansında mübtədanı təyin kimi də başa düşmək olar? (durğu işarələri buraxılmışdır) (Çəki: 1)

- O mənim qardaşıma çox yaxşılıqlar etmişdir.
- Yuxarılar xalqın güzəranı ilə heç maraqlanmır da.
- Qoca tülkünü meşədə çox axtardı.
- Hər kəs öz hüququnu və vəzifəsini bilməlidir.
- İşıqlanan evin pəncərəsi uzaqdan görünürdü.

---

Sual: «Niyə?»-hansı cümlə üzvünün və ya üzvlərinin sualıdır? (Tam cavabı seçin) (Çəki: 1)

- səbəb zərfliyi və kəmiyyət zərfliyinin
- səbəb zərfliyi və məqsəd zərfliyinin
- yalnız məqsəd zərfliyinin
- yalnız səbəb zərfliyinin
- kəmiyyət zərfliyinin

---

Sual: Hansı cümlənin mübtədası söz birləşməsi ilə ifadə olunmuşdur? (Çəki: 1)

- Yeni tikilmiş məktəb şəhərimizin ən böyük məktəblərindən biridir.
- Məktəbimizin direktoru şagirdləri vətənpərvərliyə, birliyə çağırırdı.
- İnsanlıq faciəyə doğru gedir.
- Saxlama qəlbində kini, nifrəti.
- Mən Vətənimə azad, firavan olmağı arzulayıram

---

Sual: Cümlələrdən hansında bütün cümlə üzvləri işlənmişdir? (Çəki: 1)

- Nehrəm kəndi H.Əliyevə arxa idi.
- Bu dünya bir qızıl kuzəyə bənzər.
- Kəndimizin tarixiliyi hamını heyran etmişdi.
- Gözəl bir qız bizə tərəf qaçaraq məni atasına göstərdi.
- Xalq azadlıq uğrunda çox çalışmışdır.

---

Sual: Feli sifət tərkibi ilə ifadə olunmuş mübtədalar hansı cümlələrdədir? 1. Gözlərini bir an da olsun kitabdan çəkməyən Nail nədənsə yerindən dik atılıb qaçdı. 2. Oxuyan uşaq heç nəyə baxmadan öz işi ilə məşğul olar. 3. Bizə baxanlar sanki gözləri ilə bizə «rədd olun» deyirdilər. 4. «Qaçanı qovmazlar» deyibdir atalar. 5. Daima qəlbində məhəbbət yaşadan heç vaxt qocalmaz. (Çəki: 1)

- 1,3,5
- 1,2,4
- 2,3,4
- 2,3
- 3,5

---

Sual: .“Şagird üçün dərs oxumaq hər şeydən vacibdir” cümləsində hansı cümlə üzvləri iştirak etməmişdir? 1. tamamlıq 2. təyin 3. zərflik 4. ismi xəbər 5. feli xəbər 6. mübtəda (Çəki: 1)

- 1, 2, 6
- 2, 3, 5
- 2, 4, 6
- 2, 3
- 4, 5

---

Sual: "Bənövşənin atası daşın üstündə dayanıb xəyala dalmışdir" - cümləsində neçə cümlə üzvü var? (Çəki: 1)

- 2
- 3
- 6
- 5
- 4

---

Sual: .... cümlənin baş üzvü olub haqqında danışılan şəxsi, əşyanı bildirir: (Çəki: 1)

- xəbər
- mübtəda
- təyin
- tamamlıq
- zərflik

---

Sual: Biri mürəkkəb söz birləşməsi deyil: (Çəki: 1)

- evə sarı getmək
- vətəni qorumaq şərəfi
- əzəmətli Şuşa qalası

- ◯ Füzuli qəzəllərinin şərhi
- ◯ doğma yurdun gözəl mənzərələri

---

Sual: “Baxımlı film” söz birləşməsinin tərəfləri arasında hansı əlaqə var? (Çəki: 1)

- ◯ tabesizlik
- ◯ idarə, yanaşma
- ◯ uzlaşma
- ◉ yanaşma
- ◯ idarə

---

## Bölmə: 12-03

| | |
|---|---|
| Ad | 12-03 |
| Suallardan | 23 |
| Maksimal faiz | 23 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: «Ağacların altındakı otlar Rasimə xoş gəlirdi» cümləsində neçə üzv var? (Çəki: 1)

- ◉ 4
- ◯ 3
- ◯ 2
- ◯ 5
- ◯ 6

---

Sual: «Dağın zirvəsində uçan qartal qəfildən aşağı şığıdı» cümləsində hansı cümlə üzvü işlənməmişdir? (Çəki: 1)

- ◯ mübtəda
- ◯ xəbər
- ◯ təyin
- ◯ zərflik
- ◉ tamamlıq

---

Sual: Cümlənin xəbəri nə ilə ifadə olunmuşdur? Bizim borcumuz tariximizi dərindən öyrənməkdir. (Çəki: 1)

- ◯ fellə
- ◯ isimlə
- ◯ feli sifətlə
- ◯ əvəzliklə
- ◉ məsdər tərkibi ilə

---

Sual: Cümlələrin birində xəbər sayla ifadə olunmuşdur: (Çəki: 1)

- ◯ Onlar kənddə yaşayırlar.

- ◯ Onların sözündə bir həqiqət var.
- ◯ Onunculara təşəkkür edildi.
- ◉ Sənin bütün qiymətlərin beşdir.
- ◯ Yanan lampa yüzlükdür.

---

Sual: Hansı cümlənin mübtədası sayla ifadə olunmuşdur? (Çəki: 1)
- ◯ Qocalara qayğı lazımdır.
- ◯ Bunu hamı bilir.
- ◉ Altıncılar bu yarışda qalib gəldilər.
- ◯ Deyilən söz yadigardır.
- ◯ Birisi yazı yazırdı, birisi qulaq asırdı.

---

Sual: Mürəkkəb xəbərli cümləni göstərin: (Çəki: 1)
- ◯ Mən Yaşara minnətdaram.
- ◯ Bir zamanlar insanlar qul halında yaşamışlar.
- ◯ Uşaqlar səyahətdən doymurdular.
- ◉ Gənclər bizim gələcəyimizdir.
- ◯ Elman talvarın altında oturub kitab oxuyurdu.

---

Sual: Verilmiş nümunədə neçə cümlə üzvü var? «Səhər dağlar ağ dumana bürünmüşdü". (Çəki: 1)
- ◯ 3
- ◯ 4
- ◯ 2
- ◯ 1
- ◉ 5

---

Sual: Həmcins təyinlər hansı cümlədə verilmişdir? (Çəki: 1)
- ◯ İgid, cəsur və qorxmazlar həmişə öndə gedər.
- ◉ Həm rəhmli, həm rəhmsiz insanlar buna görə çox pis olarlar.
- ◯ Mənim dostlarım, tanışlarım, qohumlarım bu gün sizə gələcək.
- ◯ Kitabını, qələmini, dəftərini yığ, gedək.
- ◯ Dərdi olan da, olmayan da onun qapısına gedirdi.

---

Sual: Verilmiş cümlədə feli bağlama tərkibi zərfliyin hansı məna növü kimi işlənib? Sən gələndə bahar olur, yaz olur. (Çəki: 1)
- ◉ Zaman zərfliyi
- ◯ Tərzi-hərəkət zərfliyi
- ◯ Səbəb zərfliyi
- ◯ Yer zərfliyi
- ◯ Məqsəd zərfliyi

---

Sual: Zərflik işlənmiş cümləni göstərin: (Çəki: 1)
- ◯ Sara qırmızı paltarını bacısına bağışladı.
- ◯ Onun vəzifəsini böyütdülər.

- Şeyx Nəsrullah "Ölülər" pyesinin qəhrəmanıdır.
- (x) Fəridə bir an belə dincəlmədən işləyirdi.
- Müəllim yaxşı oxuyan şagirdləri qiymətləndirdi.

---

Sual: Səbəb zərfliyi hansı cümlədədir? (Çəki: 1)
- Mən bilik əldə etmək üçün oxuyuram.
- (x) Dağlar sıx dumana büründüyü üçün heç nə görünmürdü.
- Bu dağlar necə də Savalana oxşayır.
- Bax indicə ildırım çaxacaq.
- Onları divarda üz-üzə zəncirləmişdilər.

---

Sual: Hansı cümlədə təyin ismi birləşmə ilə ifadə olunub? (Çəki: 1)
- Qala qapıları yavaş-yavaş açıldı.
- (x) Mənim rəfiqəm Sara burada yoxdur.
- Təkcə pöhrələnən ağaclara baxmaqdan zövq alırdım.
- Yaxşı oxuyan tələbələr olimpiadada iştirak edəcəklər.
- Qızıl payız öz ətrini dağa, çəmənə yaydı.

---

Sual: Zərfliklə təyinin ortaq əlamətləri kimi verilənlərin biri səhvdir: (Çəki: 1)
- Aid olduqları cümlə üzvlərinə yalnız yanaşma əlaqəsi ilə bağlanırlar.
- İkinci dərəcəli cümlə üzvləridir.
- Quruluşca sadə və mürəkkəb olurlar.
- Bəzi sualları ortaqdır.
- (x) Bütün nitq hissələri ilə ifadə oluna bilirlər.

---

Sual: Hansı cümlədə mürəkkəb tamamlıq işlənib? (Çəki: 1)
- Nənəm qızılgüldən gülab çəkirdi.
- Əlibabada maraqlı kitablar var.
- Vətən doğulduğun torpaqdan başlanır.
- Əlüzyuyanı təmir etdirməliyik.
- (x) Vətən sevgisini uşaqlara körpəlikdən öyrətməliyik.

---

Sual: Tamamlıq aşağıdakılardan biri ilə ifadə oluna bilmir: (Çəki: 1)
- II növ təyini söz birləşmələri
- III növ təyini söz birləşmələri
- feli sifət tərkibləri
- (x) feli bağlama tərkibləri
- məsdər tərkibləri

---

Sual: "Sevincindən yerə-göyə sığmayan ana şəhərdə eşitdiklərini dərhal qonşulara danışdı" cümləsindəki təyin nə ilə ifadə olunmuşdur? (Çəki: 1)
- sifətlə
- feli sifətlə
- (x) feli sifət tərkibi ilə

- feli bağlama tərkibi ilə
- zərflə

---

Sual: Hansı cümlədə mürəkkəb təyin var? (Çəki: 1)
- Anar hazırcavab oğlandır.
- Ayla girdəsifət qızdır.
- O, açıqqəlbli insandır.
- Qəbul etdiyi dərmanlar acı idi.
- Səhərdən başlanan yağış axşam kəsdi.

---

Sual: Səbəb zərfliyi işlənmiş cümləni göstərin: (Çəki: 1)
- Qoca dincəlmək üçün dəniz kənarına getdi.
- Quş yem gətirmək üçün uzaqlara uçdu.
- Uşaq xəstələndiyi üçün dərsə getməmişdi.
- Onu görmək üçün tezdən oyanmalısan.
- Arzuna çatmaq üçün çox çalışmalısan.

---

Sual: “Nə üçün şeir yazan şair əlləri Elmin dəryasında üzə bilməsin” cümləsində mübtəda nə ilə ifadə olunmuşdur? (Çəki: 1)
- isimlə
- feli sifətlə
- feli sifət tərkibi ilə
- II növ təyini söz birləşməsi ilə
- III növ təyini söz birləşməsi ilə

---

Sual: “Müsyö Jordan bu yerlərə Qarabağın təbiətini öyrənmək üçün gəlmişdi” cümləsində zərfliyin hansı məna növləri işlənmişdir? (Çəki: 1)
- yer, səbəb
- zaman, məqsəd
- kəmiyyət, səbəb
- yer, məqsəd
- tərzi-hərəkət, səbəb

---

Sual: "Əlbəttə, qızılgülün vətəni Azərbaycandır" - cümləsində hansı cümlə üzvləri işlənib? (Çəki: 1)
- mübtəda, təyin
- tamamlıq, xəbər
- təyin, xəbər
- mübtəda, xəbər
- tamamlıq, təyin

---

Sual: "Qarabağda yaşadığım müddətdə Sultanbud meşəsinə getmişdim" - cümləsində hansı cümlə üzvləri işlənmişdir? (Çəki: 1)
- mübtəda, xəbər
- təyin, tamamlıq, xəbər

- ( ) zərflik, zərflik, xəbər
- (•) zərflik, tamamlıq, xəbər
- ( ) tamamlıq, təyin zərflik

---

Sual: "Şiddətli külək xəzəli, toz-torpağı göyə sovururdu" - cümləsində neçə cümlə üzvü var? (Çəki: 1)

- ( ) 3
- ( ) 4
- (•) 5
- ( ) 6
- ( ) 2

---

## Bölmə: 13-01

| | |
|---|---|
| Ad | 13-01 |
| Suallardan | 5 |
| Maksimal faiz | 5 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: Həmcins üzvlər arasında işlənən hansı tabesizlik bağlayıcısından sonra vergül işarəsi qoyulur? (Çəki: 1)

- ( ) və, ilə
- ( ) amma, ancaq, lakin
- ( ) halbuki, habelə
- (•) da, də
- ( ) yəni

---

Sual: Həmcins üzvlər haqqında yürüdülən fikirlərdən biri səhvdir: (Çəki: 1)

- ( ) Həmcins üzvlər bərabərhüquqlu olur.
- ( ) Eyni qrammatik formaya malik olur.
- ( ) Eyni bir cümlə üzvü ilə bağlı olur.
- ( ) Bütün cümlə üzvləri həmcins ola bilər.
- (•) Həmcins üzvlər yalnız tabelilik bağlayıcıları vasitəsilə əlaqələnir.

---

Sual: Biri yəqinlik bildirən ara söz deyil: (Çəki: 1)

- ( ) əlbəttə
- ( ) düzü
- ( ) şübhəsiz
- ( ) həqiqətən
- (•) beləliklə

---

Sual: “Oğlum, görünür, sən hər şeydən xəbərdarsan” cümləsində işlənmişdir:1) həmcins

üzvlər 2) xitab 3) əlavə 4) ara söz (Çəki: 1)

- 1,2
- 2,3
- 3,4
- 1,4
- 2,4

---

Sual: "Kim bu məsələnin həllini bilir?" cümləsinin mübtədası nə ilə ifadə olunmuşdur? (Çəki: 1)

- isimlə
- qeyri-müəyyən əvəzliklə
- sual əvəzliyi ilə
- II növ təyini söz birləşməsi ilə
- III növ təyini söz birləşməsi ilə

---

## Bölmə: 13-02

| | |
|---|---|
| Ad | 13-02 |
| Suallardan | 7 |
| Maksimal faiz | 7 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: Həmcins üzvlər arasında hansı durğu işarəsi qoyulur? (Çəki: 1)

- vergül
- tire
- iki nöqtə
- nöqtəli vergül
- heç nə

---

Sual: Biri güman və şübhə bildirən ara söz deyil: (Çəki: 1)

- görünür
- gərək ki
- məncə
- deyəsən
- bəlkə

---

Sual: Nəticə bildirən ara sözlər hansı cümlələrdə işlənib? 1) Deməli, evinizi təmir etdirə bilmirsiniz. 2) Yəqin, orada yeni evlər tikiləcək. 3) Xülasə, gəlib çıxdıq mətləb üstünə. 4) Əlbəttə, sənə kömək edərəm. 5) Doğrusu, bu çox çətin məsələdir. (Çəki: 1)

- 1,2,5
- 2,3,4
- 3,4
- 1,3

◯ 1,4,5

---

Sual: Hansı cümlədə iki ara söz işlənib? (Çəki: 1)
- ◯ Deməli, ancaq sən ora gedə bilərsən.
- ◉ Görünür, o, doğrudan da, günahsızdır.
- ◯ Bəlkə də, sən bu məsələdə tamamilə haqlısan.
- ◯ Deyəsən, bizim məqsədimiz heç də düzgün başa düşülməyib.
- ◯ Yəqin, yalnız nadanlar onu bu cür başa düşə bilərlər.

---

Sual: Ara sözlərlə bağlı fikirlərdən biri səhvdir: (Çəki: 1)
- ◯ Danışanın ifadə olunan fikrə münasibətini bildirir.
- ◯ Cümlədəki başqa sözlərdən vergüllə ayrılır.
- ◉ Qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olur.
- ◯ Yəqinlik, şübhə, nəticə və s. mənaları ifadə edir.
- ◯ Cümlənin əvvəlində, ortasında və sonunda işlənə bilir.

---

Sual: Xitab haqqında yürüdülən fikirlərdən biri səhvdir: (Çəki: 1)
- ◯ Cümlədə müraciət olunanı bildirir.
- ◯ İsmin adlıq halında işlənir.
- ◯ Cümlənin əvvəlində, ortasında və sonunda işlənə bilir.
- ◉ Cümlənin xəbəri ilə uzlaşır.
- ◯ Mübtədadan xüsusi intonasiyası ilə fərqlənir.

---

Sual: Xitabla bağlı fikirlərdən yalnız biri doğrudur: (Çəki: 1)
- ◯ Xitab yalnız insana aid sözlərlə ifadə olunur.
- ◯ Tərkibinə görə xitablar yalnız bir sözdən ibarət olur.
- ◯ Cümlənin yalnız əvvəlində işlənir.
- ◉ Xitablar ay, ey, a, hey kimi köməkçi vasitələrlə birlikdə də işlənir.
- ◯ Cümlə üzvləri ilə sintaktik əlaqəyə girir.

---

## Bölmə: 13-03

| | |
|---|---|
| Ad | 13-03 |
| Suallardan | 5 |
| Maksimal faiz | 5 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: “Kənddə dan yeri ağaranda quşların xoş nəğməsi ətrafı bürüyür, sürülər, naxırlar, ilxılar otlaqlara yayılırdı” cümləsində hansı cümlə üzvləri həmcinsdir? (Çəki: 1)
- ◯ mübtədalar və xəbərlər
- ◉ mübtədalar
- ◯ tamamlıqlar və xəbərlər

- tamamlıqlar
- həmcins üzv yoxdur

---

Sual: Həmcins üzvlü sadə cümlələr hansı cavabda düz göstərilib? 1) Sona ərinin vəfatından sonra onu istəyənlərə getməmiş, balasını ögey atalı etməmişdi. 2) Bu yaşda uşaqların xatirəsində faciələr, gördüyü ağır günlər dərin iz buraxır. 3) Görmürsən, indicə gəlib bizə çatacaqlar. 4) Amma bir eybi var ki, həmişə işə gecikir. 5) Başı oynamağa qarışır, hər şey yadından çıxır. (Çəki: 1)

- (•) 1,2
- 4,5
- 1,4
- 2,3
- 3,5

---

Sual: Hansı sıradakı hər iki söz həm feli xəbər, həm də ara söz kimi işlənə bilir? (Çəki: 1)

- (•) demə, görünür
- deməli, doğrudan
- düzdür, qoy
- bax, gör
- gəlsənə, qoysana

---

Sual: Hansı cümlədə qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan iki söz işlənmişdir? (Çəki: 1)

- Nəhayət, Həsən müəllim iclasdakılara müraciətlə sözə başladı.
- Sona, o kitabı mənə ver də.
- Məncə, sən yanlış yoldasan.
- Ey mənim həqiqi dostum, de görüm fikrin nədir?
- (•) Bilirsən, Vidadi, sözün doğrusu,Olmaq istəmirəm vicdan oğrusu .

---

Sual: “Ağacların altındakı otlar ona xoş gəlirdi” cümləsində neçə üzv var? (Çəki: 1)

- 3
- (•) 4
- 2
- 5
- 6

---

## Bölmə: 14-01

| | |
|---|---|
| Ad | 14-01 |
| Suallardan | 7 |
| Maksimal faiz | 7 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: Məqsəd və intonasiyaya görə sadə cümlənin neçə növü var? (Çəki: 1)

- 5
- 4
- 3
- 6
- 2

---

Sual: Biri məqsəd və intonasiyaya görə sadə cümlə növü deyil: (Çəki: 1)

- əmr cümləsi
- nəqli cümlə
- sual cümləsi
- müxtəsər cümlə
- nida cümləsi

---

Sual: “Bu məktubu sizə hərbi hissədən göndəriblər” cümləsi sadə cümlənin hansı növünə aiddir: (Çəki: 1)

- cüttərkibli, müxtəsər
- cüttərkibli, geniş
- təktərkibli, müxtəsər
- təktərkibli, geniş
- yarımçıq cümlə

---

Sual: "Dur, and iç Babəkin məzarı üstə, Elləri bir yeni, ağ günə səslə!” cümləsinin növünü müəyyənləşdirin: (Çəki: 1)

- ümumi şəxsli cümlə
- qeyri-müəyyən şəxsli cümlə
- şəxssiz cümlə
- mübtədasız müəyyən şəxsli cümlə
- tabesiz mürəkkəb cümlə

---

Sual: Hansı məsdər cümlədir? (Çəki: 1)

- Stadion. Səs-küy. Futbol yarışı…
- – İsmayılzadəni tanıyırsanmı? - Bəli (H.Mehdi)
- Axşam… Göy fikirli… Dəniz nigaran… (N.Xəzri)
- Hər ehtimala qarşı hazır olmaq və düşməni məhv etmək.
- Baharın son günləri idi.

---

Sual: Biri söz-cümlədir: (Çəki: 1)

- –Dərslərini öyrənmisən? - Əlbəttə.
- Oxumaq, oxumaq, yenə də oxumaq.
- Səhərdir.
- – Hara gedirsən? - Məktəbə.
- Qışın ortaları… Qar… Çovğun…

---

Sual: Hansı söz xitab kimi işlənə bilməz? (Çəki: 1)
- ana
- uşaq
- irəli
- dostlar
- alim

## Bölmə: 14-02

| | |
|---|---|
| Ad | 14-02 |
| Suallardan | 13 |
| Maksimal faiz | 13 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: Sual cümləsi neçə yolla düzəlir? (Çəki: 1)
- 1
- 2
- 3
- 4
- 5

Sual: "Qar yağır" cümləsinin sonunda durğu işarəsi qoyulmasa, onu məqsəd və intonasiyaya görə hansı cümlə növünə aid etmək olar? (Çəki: 1)
- nəqli cümləyə
- əmr cümləsinə
- sual cümləsinə
- nida cümləsinə
- heç birinə

Sual: Biri əmr cümləsidir: (Çəki: 1)
- Olmadı elə, oldu belə!
- Qış sərt keçdi.
- Ananın tənbəl oğlu hambal olar.
- O olmasın, bu olsun.
- Yol böyüyündür, su kiçiyin.

Sual: Cüttərkibli müxtəsər cümlələrin sırasını göstərin: 1) Kitabın qiyməti ucuz idi 2) Səlimin qonağı çoxdan gəlib 3) Məni heyrətləndirən sənin soyuqqanlılığındır 4) Görəsən, imtahanı verə biləcəyəm? 5) Onu əsgərliyə apardılar (Çəki: 1)
- 1,3
- 2,4
- 3,5
- 2,3

- 1,4

---

Sual: Hansı təktərkibli müxtəsər cümlədir? (Çəki: 1)
- Direktorun müavini otağa daxil oldu.
- İçəridə Arzunun tanımadığı adamlar da var idi.
- Gözü ayağının altını görmür.
- Kitab sizindir?
- Nadir universitet tələbəsidir.

---

Sual: “Axşamlar Mehman kişi qızı Zərifəni dizinin üstündə oturdar, onun xurmayı saçlarını sığallayar, ona çoxlu nağıl və əfsanə danışardı” cümləsi haqqında yürüdülən fikirlərdən hansı doğrudur? (Çəki: 1)
- Cüttərkibli sadə, geniş cümlədir.
- Təktərkibli cümlədir.
- Tabesiz mürəkkəb cümlədir.
- Tabeli mürəkkəb cümlədir.
- Müxtəsər cümlədir.

---

Sual: Xəbəri frazeoloji birləşmə ilə ifadə olunmuş cüttərkibli cümləni göstərin: (Çəki: 1)
- May ayının axırları idi.
- Burada xallı ceyrana az-az təsadüf edilir.
- Gözləri onu axtarırdı.
- Qəbul imtahanları yaxınlaşır.
- Onun bu tikanlı sözləri ananın qəlbinə toxundu.

---

Sual: Təktərkibli cümlələr haqqındakı fikirlərdən biri yanlışdır: (Çəki: 1)
- Təktərkibli cümlələr baş üzvlərdən biri əsasında formalaşır.
- Bu cümlələr iki növə ayrılır: xəbər və mübtəda əsasında formalaşanlar.
- Xəbər əsasında formalaşan təktərkibli cümlələrin üç növü var.
- Adlıq cümlə mübtəda əsasında formalaşır.
- Təktərkibli cümlələr yalnız geniş olur.

---

Sual: Ümumi şəxsli cümlə haqqında yürüdülən fikirlərdən biri səhvdir: (Çəki: 1)
- Hərəkət və ya hökmün eyni zamanda hamıya aid olduğunu bildirir.
- Ümumiləşmiş mənalar ifadə edir.
- Əsasən, atalar sözləri və məsəllərdən ibarət olur.
- Xəbəri yalnız III şəxsin təkində işlənir.
- Ümumi şəxsli cümlələr,əsasən, geniş olur.

---

Sual: “Cavan olanda məgər sözə baxmazlar?” cümləsi sadə cümlənin hansı növünə aiddir? (Çəki: 1)
- Şəxssiz cümlədir.
- Qeyri-müəyyən şəxsli cümlədir.
- Müəyyən şəxsli cümlədir.
- Ümumi şəxsli cümlədir.

- ( ) Adlıq cümlədir.

---

Sual: Qeyri-müəyyən şəxsli cümləni müəyyənləşdirin: (Çəki: 1)
- ( ) İşləməyənə tənbəl deyərlər.
- ( ) Müstəntiqlər bir azdan onu dindirəcəklər.
- (•) Bizi hərbi hissəyə apardılar.
- ( ) Ürək xəstəliyinə tutulandan sonra övladları onu yerindən tərpənməyə qoymurdular.
- ( ) Verilən tapşırıqlara vaxtında əməl edilməlidir.

---

Sual: Biri geniş adlıq cümlə kimi işlənə bilər: (Çəki: 1)
- (•) Dağın ətəyində gözəl bir mənzərə.
- ( ) Axşam.
- ( ) Toy.
- ( ) Payız.
- ( ) Nəğmələr.

---

Sual: "Məsələyə baxılacaq" cümləsinin növünü müəyyənləşdirin: (Çəki: 1)
- ( ) Müəyyən şəxsli cümlədir.
- (•) Şəxssiz cümlədir.
- ( ) Ümumi şəxsli cümlədir.
- ( ) Qeyri-müəyyən şəxsli cümlədir.
- ( ) Adlıq cümlədir.

---

## Bölmə: 14-03

| | |
|---|---|
| Ad | 14-03 |
| Suallardan | 2 |
| Maksimal faiz | 2 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: Nida cümlələrini müəyyənləşdirin: 1) Azərbaycan əsgərləri, irəli! 2) Bir sən ol, bir də mən, bir də dərdimiz. Ağlayaq doyunca, gülək doyunca. 3) Var olsun azad yurdun azad oğulları! 4) Yaşasın anamız müqəddəs Vətən! 5) Yenə tovuz kimisən, nə gözəl bəzənmisən? (Çəki: 1)
- (•) 1,3,4
- ( ) 2,4,5
- ( ) 1,3
- ( ) 4,5
- ( ) 2,4

---

Sual: Söz-cümlə haqqındakı fikirlərdən biri yanlışdır: (Çəki: 1)
- ( ) Söz-cümlələr üzvlənmir.

- ○ Bir sözdən ibarət olur.
- ○ Söz-cümlələrdən sonra intonasiyadan asılı olaraq müxtəlif durğu işarələri (nöqtə, üç nöqtə, nida, sual işarəsi) qoyulur.
- ○ Bəzən nidalar, ədatlar və modal sözlər təklikdə işləndikdə bitmiş fikir ifadə edir və söz-cümlə kimi formalaşır.
- ◉ Söz-cümlələr cümlədə, əsasən, xəbər vəzifəsində işlənir.

---

## BÖLMƏ: 15-01

| | |
|---|---|
| Ad | 15-01 |
| Suallardan | 18 |
| Maksimal faiz | 18 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: Surətlərdən hansı «Kitabi-Dədə Qorqud» dastanının qəhrəmanı deyil? (Çəki: 1)
- ○ Dirsə xan
- ○ Bəkil
- ◉ Qara xan
- ○ Buğac
- ○ Bamsı Beyrək

---

Sual: «Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy»da «Bəylər, Tanrı mənə bir fərsiz oğul vermişdir. Gedək onu anası yanından götürək, qılıncla parçalayaq, altı parça edək, altı yol ayrıcına ataq. Bir daha kimsə çöllük yerdə yoldaş qoyub qaçmasın!» sözləri kimin dilindən deyilir? (Çəki: 1)
- ◉ Qazan xanın
- ○ Dirsə xanın
- ○ Qaragünənun
- ○ Bəkilin
- ○ Dədə Qorqudun

---

Sual: Nizami Gəncəvinin ilk poeması hansıdır? (Çəki: 1)
- ○ «Yeddi gözəl»
- ○ «Xosrov və Şirin»
- ○ «İskəndərnamə»
- ◉ «Sirlər xəzinəsi»
- ○ «Leyli və Məcnun»

---

Sual: Nizami Gəncəvi haqqındakı hansı fikir yanlışdır? (Çəki: 1)
- ○ XII əsrdə yaşamış dünya şöhrətli sənətkardır.
- ○ Ona dünya şöhrəti qazandıran «Xəmsə»si olmuşdur.
- ◉ Gəncədə doğulmuş, Sultan Səncərin sarayında yaşamışdır.
- ○ Ədəbi ənənəyə uyğun olaraq əsərlərini farsca yazmışdır.

- Onun əsərlərində zülmə, haqsızlığa, ədalətsiz hökmdarlara dərin nifrət və etiraz vardır.

---

Sual: Nizami Gəncəvi öz əsərlərini hansı dildə yazmışdır? (Çəki: 1)

- Azərbaycan, fars və ərəb dillərində
- (x) Fars dilində
- Azərbaycan dilində
- Azərbaycan və fars dillərində
- Ərəb və fars dillərində

---

Sual: Nizami Gəncəvinin «İskəndərnamə» poeması haqqındakı hansı fikir səhvdir? (Çəki: 1)

- Nizami Gəncəvinin axırıncı poemasıdır.
- Poema iki hissədən ibarətdir.
- (x) Birinci hissə «İqbalnamə» adlanır.
- «İqbalnamə»də şairin həyat, insan haqqında düşüncələri verilir.
- «Şərəfnamə»də İskəndərin apardığı müharibələr əks etdirilir.

---

Sual: İmadəddin Nəsimi haqqındakı hansı fikir səhvdir? (Çəki: 1)

- XIV əsrdə ana dilimizin qüdrətli sənət dili səviyyəsinə yüksəlməsi Nəsiminin xidməti sayəsində mümkün olmuşdur.
- Tarixçilər, ədəbiyyat biliciləri onu «cəsur şair» adlandırmışlar.
- Nəsimi şeir-sənət ocağı olan Şamaxıda dünyaya göz açmış, təhsilini də burada almışdır.
- Şair ərəb və fars dillərini mükəmməl öyrənmişdir.
- (x) Nəsimi gənclik illərində sufizm təriqətinə meyl göstərmiş və ilk şeirlərini "Nəsimi" təxəllüsü ilə yazmışdır.

---

Sual: İmadəddin Nəsimi haqqındakı hansı fikir doğrudur? (Çəki: 1)

- Şeir-sənət ocağı olan Gəncədə anadan olmuşdur.
- Təkcə Azərbaycan dilində yazıb-yaratmışdır.
- (x) Hürufi ideyalarını yaymış, təbliğ etmişdir.
- Çoxlu qəzəlləri və elmi-fəlsəfi əsərləri vardır.
- 1500-cü ildə Bağdadda edam edilmişdir.

---

Sual: Şah İsmayıl Xətayi nə vaxt və harada şah elan olunmuşdur? (Çəki: 1)

- 1501-ci ildə Şamaxıda
- 1501-ci ildə Bakıda
- (x) 1501-ci ildə Təbrizdə
- 1503-cü ildə Təbrizdə
- 1503-cü ildə Bağdadda

---

Sual: Şah İsmayıl Xətayi haqqındakı hansı fikir yanlışdır? (Çəki: 1)

- Ədəbiyyat tariximizdə həm şair, həm də hökmdar kimi tanınır.
- Ulu babası Şeyx Səfiəddinin adı ilə bağlı qüdrətli Səfəvilər dövləti yaratmışdır.

◉ Atası Şeyx Heydər və böyük qardaşı Əmir Teymurun oğlu Miranşah tərəfindən öldürülmüşdür.
○ Lirik şeirlərdən başqa, iki irihəcmli əsəri də vardır.
○ Həm əruz, həm də heca vəznlərində yazıb-yaratmışdır.

---

Sual: Məhəmməd Füzuli haqqındakı hansı fikir səhvdir? (Çəki: 1)
○ XVI əsrin ən böyük sənətkarlarındandır.
○ Avropa alimləri onu heyrətlə «qəlb şairi», «Şərqdə doğan günəş» adlandırmışlar.
◉ Əsərləri ancaq fars dilində yazılmışdır.
○ Ədəbiyyatımızda dərin kök salan, qədim dövrlərdən baş alıb gələn humanizm, insan gözəlliyinin tərənnümü Füzuli yaradıcılığında yeni zirvəyə qaldırılmışdır.
○ Əsərlərini Azərbaycan, fars və ərəb dillərində yazmışdır.

---

Sual: Əsərlərdən biri Məhəmməd Füzulinindir: (Çəki: 1)
○ «Nəsihətnamə»
○ «Yeddi gözəl»
◉ «Söhbətül-əsmar»
○ «Dəhnamə»
○ «İskəndərnamə»

---

Sual: Məhəmməd Füzuli hansı dildə yazıb-yaratmışdır? (Çəki: 1)
○ Yalnız Azərbaycan dilində
○ Azərbaycan və fars dillərində
◉ Azərbaycan, fars və ərəb dillərində
○ Azərbaycan və ərəb dillərində
○ Yalnız fars dilində

---

Sual: «Koroğlu» dastanı nə vaxt yaranmışdır? (Çəki: 1)
○ XV əsrin sonu, XVI əsrin əvvəllərində
○ XVI əsrin ortalarında
◉ XVI əsrin sonu, XVII əsrin əvvəllərində
○ XVII əsrin ortalarında
○ XVII əsrin sonu, XVIII əsrin əvvəllərində

---

Sual: Verilənlərdən biri Koroğlunun dəlilərindən deyil: (Çəki: 1)
○ Dəli Həsən
○ Bəlli Əhməd
○ Dəli Mehtər
○ İsabalı
◉ Dəli Kərəm

---

Sual: Verilən şeirlərdən biri Molla Pənah Vaqifindir: (Çəki: 1)
○ «Zəmanədən şikayət»
◉ «Görmədim»
○ «Sığmazam»

- «Eylər»
- «Yaylaq»

---

Sual: Molla Pənah Vaqifin bu şeirlərindən biri qoşma janrında deyil: (Çəki: 1)
- «Pəri»
- «Hayıf ki yoxdur»
- (x) «Bax»
- «Durnalar»
- «Yoxdur»

---

Sual: Hürufilik fəlsəfi cərəyanının banisi kimdir? (Çəki: 1)
- Nəsimi
- (x) Nəimi
- Mənsur Həllac
- Xətayi
- Cəlaləddin Rumi

---

## Bölmə: 15-02

| | |
|---|---|
| Ad | 15-02 |
| Suallardan | 14 |
| Maksimal faiz | 14 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: Verilən şeirlərdən biri Molla Pənah Vaqifin deyil: (Çəki: 1)
- «Pəri»
- (x) «Bahar»
- «Durnalar»
- «Görmədim»
- «Bax»

---

Sual: Molla Pənah Vaqif haqqında verilənlərdən hansı səhvdir? (Çəki: 1)
- Qazaxda – Qıraq Salahlı kəndində anadan olmuşdur.
- Mükəmməl mədrəsə təhsili almış, Şərq ədəbiyyatı ilə yaxından tanış olmuşdur.
- (x) Fars və ərəb dillərini dərindən öyrənmiş, ana dilindən başqa, bu dillərdə də sənət nümunələri yaratmışdır.
- Həm əruz, həm də heca vəznlərindən istifadə etmişdir.
- Yaradıcılığında məhəbbət mövzusu mühüm yer tutur.

---

Sual: Mirzə Fətəli Axundzadə öz şeirlərini hansı təxəllüslə yazmışdır? (Çəki: 1)
- Qüdsi
- Qəmxar

- Fədai
- Fərzani
- Səbuhi

---

Sual: Mirzə Fətəli Axundzadənin ilk dram əsəri hansıdır? (Çəki: 1)
- «Hekayəti-Molla İbrahimxəlil kimyagər»
- «Hekayəti-Müsyö Jordan və dərviş Məstəli şah»
- «Sərgüzəşti-vəziri-xani-Lənkəran»
- «Hekayəti-Xırs quldurbasan»
- «Mürafiə vəkillərinin hekayəti»

---

Sual: Mirzə Fətəli Axundzadənin bu əsərində xəsislik mənfi, eybəcər hal kimi ifşa edilir: (Çəki: 1)
- «Hekayəti-Molla İbrahimxəlil kimyagər»
- «Aldanmış kəvakib»
- «Sərgüzəşti-vəziri-xani-Lənkəran»
- «Hacı Qara»
- «Zəmanədən şikayət»

---

Sual: Aşıq Ələsgərin ustadı kim olmuşdur? (Çəki: 1)
- Ağ Aşıq
- Aşıq Abbas Tufarqanlı
- Aşıq Valeh
- Aşıq Alı
- Növrəs İman

---

Sual: «Molla Nəsrəddin» jurnalı nə vaxt nəşrə başlamışdır? (Çəki: 1)
- 1905-ci ildə
- 1906-cı ildə
- 1907-ci ildə
- 1908-ci ildə
- 1909-cu ildə

---

Sual: Verilmiş əsərlərdən biri Cəlil Məmmədquluzadənin deyil: (Çəki: 1)
- «Ölülər»
- «Usta Zeynal»
- «Dağılan tifaq»
- «Anamın kitabı»
- «Quzu»

---

Sual: Cəlil Məmmədquluzadə bədii yaradıcılığa nə vaxt başlamışdır? (Çəki: 1)
- mollaxanada oxuyarkən
- şəhər məktəbində oxuyarkən
- Qori müəllimlər seminariyasında oxuyarkən

- ○ Tiflisdə yaşayarkən
- ◉ Nehrəm kəndində müəllim işləyərkən

---

Sual: Mirzə Ələkbər Sabir ilk təhsilini harada almışdır? (Çəki: 1)
- ○ evdə, atasından
- ○ bibisi Zərnişandan
- ◉ mollaxanada
- ○ «Məclis» məktəbində
- ○ rus-tatar məktəbində

---

Sual: Verilən əsərlərdən biri Mirzə Ələkbər Sabirin deyildir: (Çəki: 1)
- ○ «Ağlaşma»
- ◉ «Dərviş»
- ○ «Bizə nə?»
- ○ «Əkinçi»
- ○ «Dilənçi»

---

Sual: Verilənlərdən biri Səməd Vurğunun poemasıdır: (Çəki: 1)
- ○ «İnsan»
- ○ «Vaqif»
- ◉ «Muğan»
- ○ «Dağlar»
- ○ «Şairin andı»

---

Sual: Nizaminin hansı poemasını S.Rüstəm tərcümə edib? (Çəki: 1)
- ◉ "Sirlər xəzinəsi"
- ○ "Xosrov və Şirin"
- ○ "Leyli və Məcnun"
- ○ "Yeddi gözəl"
- ○ "İskəndərnamə"

---

Sual: Verilmiş hekayələrdən biri C.Cabbarlının deyil: (Çəki: 1)
- ○ "Gülzar"
- ○ "Aslan və Fərhad"
- ○ "Dilarə"
- ◉ "Əhməd və Məleykə"
- ○ "Firuzə"

---

## Bölmə: 15-03

| | |
|---|---|
| Ad | 15-03 |
| Suallardan | 8 |
| Maksimal faiz | 8 |
| Sualları qarışdırmaq | ☑ |

Sual: Əhməd Cavad Azərbaycanın Dövlət Himnini hansı sənətkarla birlikdə yaratmışdır? (Çəki: 1)
- Müslüm Maqomayevlə
- Üzeyir Hacıbəyovla
- Zülfüqar Hacıbəyovla
- Qara Qarayevlə
- Niyazi ilə

---

Sual: Biri Hüseyn Cavidin əsərlərinə daxil deyil: (Çəki: 1)
- "Şeyx Sənan"
- "Sevil"
- "İblis"
- «Peyğəmbər»
- "Topal Teymur"

---

Sual: Nizami Gəncəvinin hansı poemasının ikinci hissəsini bəzən "Xirədnamə" də adlandırırlar? (Çəki: 1)
- «Sirlər xəzinəsi»
- «Xosrov və Şirin»
- «Leyli və Məcnun»
- «Yeddi gözəl»
- «İskəndərnamə»

---

Sual: «Ana dili» şeirinin müəllifi kimdir? (Çəki: 1)
- Bəxtiyar Vahabzadə
- Osman Sarıvəlli
- Cabir Novruz
- Məmməd Araz
- Xəlil Rza Ulutürk

---

Sual: M.Ə.Sabirin ilk şeirlər kitabı necə adlanır? (Çəki: 1)
- “Çuvalduz”
- “Hophopnamə”
- “Ürəfa marşı”
- “Ümid”
- “Əkinçi”

---

Sual: “Ölülər” əsərinin müəllifi kimdir? (Çəki: 1)
- Cəlil Məmmədquluzadə
- Mirzə Ələkbər Sabir
- Cəfər Cabbarlı

- ○ M.F.Axundov
- ○ S.S.Axundov

---

Sual: M.Ə.Sabirin şeirləri daha çox hansı jurnalda çap olunub? (Çəki: 1)

- ○ “Zənbur”
- ◉ “Molla Nəsrəddin”
- ○ “Dəbistan”
- ○ “Həyat”
- ○ “Füyuzat”

---

Sual: “Heydərbabaya salam” poeması hansı müəllifin əsəridir? (Çəki: 1)

- ○ Məmməd Araz
- ○ Süleyman Rüstəm
- ◉ Məhəmmədhüseyn Şəhriyar
- ○ Bəxtiyar Vahabzadə
- ○ Səməd Vurğun

---

## BÖLMƏ: 16-01

| | |
|---|---|
| Ad | 16-01 |
| Suallardan | 6 |
| Maksimal faiz | 6 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: Bunlardan yalnız birini rəsmi-işgüzar üslubun ən sərbəst forması hesab etmək olar? (Çəki: 1)

- ○ protokol
- ○ ərizə
- ◉ məktub
- ○ əmr
- ○ arayış

---

Sual: Verilmiş sənədi müəyyənləşdirin: May ayının 15-də universitetimizin iclas zalında şairlərdən Anar, Fikrət Qoca və Zahid Xəlillə görüş olacaq. Arzu edənlər iştirak edə bilərlər. (Çəki: 1)

- ○ protokol
- ○ arayış
- ◉ bildiriş
- ○ akt
- ○ ərizə

---

Sual: Verilmiş sənədi müəyyənləşdirin: “Nihad Kərim oğlu Aslanov, həqiqətən, Bakı

şəhər 20 saylı məktəbin XI sinif şagirdidir” (Çəki: 1)

- ərizə
- akt
- protokol
- bildiriş
- arayış

---

Sual: Bunlardan biri rəsmi sənədlər cərgəsində verilə bilməz: (Çəki: 1)

- əmr
- qanun
- xasiyyətnamə
- fərman
- sərəncam

---

Sual: Bu ifadələrdən birini ərizəyə dərkənar kimi vermək olmaz: (Çəki: 1)

- müzakirə edilsin
- rədd edilsin
- nəzərə alınsın
- fikirləşərəm
- işə götürülsün

---

Sual: Hansı sıra rəsmi sənədlərdən ibarətdir? (Çəki: 1)

- arayış, etiket
- ərizə, bildiriş
- izahat, tərcümeyi-hal
- sərəncam, fərman
- porotokol, reklam

---

## Bölmə: 16-02

| | |
|---|---|
| Ad | 16-02 |
| Suallardan | 12 |
| Maksimal faiz | 12 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: Dövlət başçısının bəyanatı aşağıdakılardan hansına uyğundur? (Çəki: 1)

- elmi-publisistik dilə
- bədii-publisistik dilə
- rəsmi sənədlərin dilinə
- işgüzar sənədlərin dilinə
- rəsmi-publisistik dilə

---

Sual: Hansı işgüzar sənəd deyil? (Çəki: 1)

- cinayət məcəlləsi
- etibarnamə
- qəbz
- elan
- izahat

---

Sual: Yalnız biri işgüzar sənədlərin əsas xüsusiyyətlərinə aiddir: (Çəki: 1)

- Həcmcə böyük olur.
- Bədii üslub elementlərindən geniş istifadə edilir.
- Mütəxəssislər tərəfindən tərtib olunur.
- Mühüm hüquqi məzmuna malik olur.
- Xüsusi dövlət əhəmiyyəti daşımır, standart formaya malik olur.

---

Sual: Telefonoqram yunanca neçə sözün birləşməsindən yaranıb: (Çəki: 1)

- – 2
- – 3
- – 4
- – 5
- – 1

---

Sual: Rəsmi-işgüzar üslubun ən sərbəst forması hansıdır? (Çəki: 1)

- bəyanat
- əmr
- qanun
- məktub
- sərəncam

---

Sual: Hesabat mənşəcə hansı dilə aiddir? (Çəki: 1)

- türk
- ərəb
- fars
- əfqan
- Azərbaycan

---

Sual: Yalnız birində müəyyən qədər fərdilik özünü göstərə bilər: (Çəki: 1)

- qanunlarda
- məcəllələrdə
- təqdimatda
- protokolda
- tərcümeyi-halda

---

Sual: Elanla bağlı verilmiş fikirlərdən biri yanlışdır: (Çəki: 1)

- Məlumatın mahiyyəti, məzmunu aydın qeyd olunmalıdır.

- ○ Məlumatın vaxtı, saatı dəqiq göstərilməlidir.
- ○ Məlumatın kim tərəfindən verilməsi göstərilməlidir .
- ◉ Şəxsin öz xətti ilə yazılmalıdır.
- ○ Tədbirin keçiriləcəyi yer qeyd edilməlidir.

---

Sual: Azərbaycan dövlətinin rəmzlərinə aid deyil: (Çəki: 1)
- ○ Dövlət bayrağı
- ○ Dövlət gerbi
- ○ Dövlət himni
- ○ Dövlət bayrağı və dövlət gerbi
- ◉ Dövlət dili

---

Sual: Məktub sözü hansı mənşəlidir? (Çəki: 1)
- ○ fars
- ◉ ərəb
- ○ türk
- ○ tatar
- ○ monqol

---

Sual: Biri işgüzar sənədlərə daxil deyil: (Çəki: 1)
- ◉ fərman
- ○ ərizə
- ○ arayış
- ○ xasiyyətnamə
- ○ elan

---

Sual: Bunlardan hansı formaca ərizə ilə eynidir? (Çəki: 1)
- ○ arayış
- ○ məktub
- ◉ izahat
- ○ bildiriş
- ○ müqavilə

---

## Bölmə: 16-03

| | |
|---|---|
| Ad | 16-03 |
| Suallardan | 4 |
| Maksimal faiz | 4 |
| Sualları qarışdırmaq | ☑ |
| Suallar təqdim etmək | 1 % |

Sual: Hansı işgüzar sənəd fərdin özü tərəfindən hazırlanmır (yazılmır)? (Çəki: 1)
- ○ izahat

- ərizə
- tərcümeyi-hal
- arayış
- etibarnamə

---

Sual: Müqavilədə neçə tərəf ola bilməz? (Çəki: 1)

- - 1
- – 2
- – 3
- – 4
- – 6

---

Sual: Rəsmi-işgüzar üsluba aid bəzi sənədlərdə olmaya da bilər: (Çəki: 1)

- dəqiqlik və konkretlik
- fikrin yığcam ifadəsi
- standart formalardan istifadə
- rəsmi vəzifəli şəxsin imzası və möhürü
- aydınlıq və yığcamlıq

---

Sual: İşgüzar sənədlərə aid cəhətləri seçin:. 1. Dövlət əhəmiyyəti daşımır. 2. Mütəxəssislər tərəfindən hazırlanır. 3. Hüquqi məzmuna malik olur. 4. Hər hansı bir şəxs tərəfindən hazırlanır (Çəki: 1)

- 2,3
- 1, 2
- 1,4
- 3, 4
- 1, 3

---